İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, **düşünərək yaşayanlar üçün**, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

*parlaq imzalar*

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

# ŞƏFFAF BALIQ

(poemalar)

VAQİF SƏMƏDOĞLU

parlaq imzalar

Koordinator: Amin

Tərtib edən və redaktor: Nüşabə BABAYEVA–VƏKİLOVA

Korrektor: Turac ELDARQIZI

Kompüterdə yığan: Könül CƏBİYEVA

Tərtibatçı: Zülfi XƏLİLOV

Cildin dizayneri: Mübariz YUSİFZADƏ

**Vaqif Səmədoğlu**
**ŞƏFFAF BALIQ** *(poemalar)*

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2022, 116 səh.

**© Vaqif Səmədoğlu / 2022**
**© Parlaq İmzalar MMC / 2022**

Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 117
Müasir Azərbaycan ədəbiyyatı | 9

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: "Nurlar" NPM
Çap tarixi: 20.06.2022
Sifariş: 41(08)/22

# Mündəricat

Ürək jarqonu — 7

Poemalar

ROYAL — 35
DİVİN NAĞILI — 44
YEDDİ MƏKTUB — 51
ŞƏFFAF BALIQ — 63
ATAMIN MƏKTUBLARINA CAVAB... — 74
BÜDRƏMƏLƏR — 82
KÖÇƏRİ QUŞLAR — 104
ROBİN QUD — 114
REKVİYEM — 123
KÜLƏK — 129
BUM-BUM — 134

# ÜRƏK JARQONU

*(Vaqif Səmədoğlunun poemaları haqqında)*

Düşüncəni bölüşməkdən daha çox fikirləşdiyini göstərmək, onu vizuallaşdırmaq baxımından Vaqif Səmədoğlunun yaradıcılığı yaddaşımıza seçilmiş hərflərlə yazılıb. O, poetik yaradıcılığında həm ovqatın mənzərəsini göstərir, həm də oxucunu həmin ovqata kökləyir. Çağdaş sərbəst şeirimizdəki səssiz düşüncə, Rəsul Rza və Əli Kərimdən gələn xətt Vaqif Səmədoğluda xüsusi bir yola çevrildi – öz ahənginə yaxınlaşdı. Əgər Rəsul Rzada, Əli Kərimdə sərbəst şeir bir sıra məqamlarda qafiyələrin müşayiətində idisə, Vaqif Səmədoğlu onu – qafiyəli düşüncəni bir az da azadlaşdırdı, ustad şairlərdən gələn yolun önünü daha geniş müstəvilərə açdı. Bununla da o, günümüzdəki sərbəst şeirə gəlib çıxmaq üçün görünən yolu özündən sonrakı ədəbi nəsillər üçün bir az da kəsələşdirdi. Eyni zamanda sərbəst şeirə Vaqif Səmədoğlu lakonizm kəsəri gətirdi – bununla da sərbəst şeir sicilləmə olmaqdan bir qədər xilas oldu, mənaya sıxışdı. Vaqif Səmədoğlu həm də mənaya köklənmək baxımından şeirimizin istiqamətini dəyişdi – lirikanı hisslərin əsirinə çevrilməsinin önünü kəsdi, lirika

dünyasının sərhədlərini genişləndirdi. Onun şeirlərini sevmək artıq bir zövq məsələsidir, onun yazdıqlarını oxumaqla, əslində, kimləri bəyənib-bəyənməmək məsələsi aydınlaşır. 90-cı illər şeirinə daha dərin qatda ən çox təsir edən şair odur, üst qatda isə başqa şairlər. Və bu gün sərbəst şeirin bu qədər geniş vüsət almasında, əslində, Vaqif Səmədoğlunun da danılmaz xidmətləri var. Çünki onun yaradıcılığını sevən ədəbi gənclik həm də onu özünə meyar seçdi, onun saldığı poetik işıq cığırları ilə gedib yeni-yeni arsenallar müəyyənləşdirdi. Eyni zamanda şeirin az yazılmasına çağdaş dövrdə Vaqif Səmədoğlu və Vaqif Bayatlı Odər öz yaradıcılıqları ilə nümunə oldular. Bugünkü ədəbi nəslin şairlərinin şeirə münasibət və məsuliyyətindən aydın görünür ki, onların böyük əksəriyyətinin yaradıcılıqlarının yekunu bir kitabdan ibarət olacaq. Örnək olmaq da ədəbiyyata xidmətdir.

Vaqif Səmədoğlu şeirləri ilə bir zövq aşıladı – poeziyanın mənəvi meyarını ölçən bir etalona çevrildi. *“Şeir sözdən istifadənin ən mükəmməl vasitəsidir”* deyir *Valeri Brüsov*. Vaqif Səmədoğlu da məhz bu mükəmməlliyi öz yaradıcılığında gərəyincə ifadə etdi.

Vaqif Səmədoğlu bildiyim qədər poemalarının oxunmamağından narahat imiş, çünki onun həcmi az olan şeirlərinin vurğunları çox zaman şairin nisbətən böyük həcmli əsərlərinə – poemalarına lazımı diqqəti əsirgəyiblər. Amma şükür ki, artıq Vaqif Səmədoğlunun bütün iri həcmli poetik əsərləri bir kitaba – bir damın altına toplanır. Özü müsahibələrinin birində deyirdi ki, bunlar ənənəvi poemalar deyil, atamın yazdıqlarına bənzəmir, belə nümunələrə Avropada *“Uzun şeir”* deyirlər. Şairin dilə gətirdiyi kimi, doğrudan da, bu əsərlər bizim

ədəbiyyatımıza xas olan poemalar deyil, daha çox çağdaş dünya şeirindəki poetik silsilələri xatırladır. Bu yazımda "Əvvəldən axıra oxunmaq" istəyən şairin az oxunan poetik nümunələri – poemaları təhlilə cəlb olunacaq:

**"ROYAL"**

...Vaqif Səmədoğlu 1964-cü ildə "Royal" poemasını yazıb. Bu poemada dünyanı dinləyən, cahana qulaq kəsilən onun nəfəsini duymaq istəyən bir insanın portreti – obrazı var. Dünyanı görərək, baş verənlərə dərindən nəzər salaraq, yaxud dünya üçün baş sındıraraq, beyin yoraraq yox, dünyanı dinləyərək anlamaq necə çətindir. Şair dünyanı təbiətin öz dilində anlamağa çağırır:

*Yaşayıram əllərimi*
*səbrimin cibinə soxub*
*əcnəbilər arasında*
*"küləkcə, məncə",*
*"Məncə, yağışca".*

Və sonra açılır ki, onu – poetik qəhrəmanı royal gözləyir, o isə ona yaxınlaşmağa vaxt tapmır. Sonra qəhrəman sevgilisini xatırlayır, Moskvanı təsvir edir, qəfil də deyir ki, burda hər şey Moskva rəngindədir. Bu isə o deməkdir ki, Polşa da, Bakı da eyni reallıqların məngənəsindədir, həyatda ümumi mənada rəngarənglik yoxdur.

*Dəniz*
*yenicə doğmuş*
*ana üzütək aydın.*

*Müharibə qaçqınlarıyla*
*dolmuş gəmitək*
*aralanır limandan,*
*ayrılır məndən*
*qara yelkənini qaldırmış*
*royal...*

Vaqif Səmədoğlunun təşbehləri əksərən nəyisə nəyəsə bənzətməyə yox, situasiyanı tamamlamağa hesablanır. Şeir yuxarıdakı misralarla bitir, amma iki təşbehlə situasiya tamamlanır və obrazın aqibəti gün işığına çıxır: Yəni qəhrəman uzaq ellərdən qız sevib, onlar ayrılıblar, sevginin vətəni olan yerdən uzaqda hər yer ona qürbətdir və bütün bunların yaratdığı ovqat onu royaldan, royalı da ondan uzaqlaşdırır. Ancaq bu kiçik poema təkcə lirik gücə malik deyil, burada həm siyasi mənzərə var, həm Sovet İmperiyasının siyasəti – həyatı eyni rəngə boyaması var, həm də ayrılıq və onun səbəbləri var. Bütün bunların yekunu isə əsərin mahiyyətini tamamlayır, yəni əsərin poetik qəhrəmanı ona görə dünyanı görmək istəmir ki, o, bu qədər hadisələrin şahididir, bunca acınacaqlı mənzərələr onun gözü önündə cərəyan edib, ona görə də o poemanın əvvəlində dünyaya baxan yox, onu dinləyən tərəfdir. Bütün bunlar aydın göstərir ki, Vaqif Səmədoğlu ilk baxışdan nə qədər sadə, anlaşıqlı şair təsiri bağışlayırsa, əslində, o qədər mürəkkəb, dərin mənalarla yüklü fərqli bir poetik nəfəsi, mənalar aləmi olan, müxtəlif dünyagörüşlərini ehtiva edə bilən, rakursları bir nöqtədə uğurla birləşdirən dəyərli bir şairdir. Və bütün bu həqiqətlər müəyyən dərəcədə aliliyə xidmət edən həqiqətlərdir.

Əks təqdirdə doğruları hamı deyə bilər. Pol Elüar həqiqətin bu cür məqamını *"faydalı"* adlandıraraq onun şeirdə ifadə etdiyi mənanı özəlləşdirir, ona vurğu gücü yükləyir: *"Poeziyanın məqsədi faydalı həqiqətdir".*

## "DİVİN NAĞILI"

Poema *Nazim Hikmət*dən epiqrafla başlayır: *"O, mavi gözlü bir divdi, kiçicik bir qadın sevdi".* Poemadan aydın olur ki, bir div bir qadını sevir, ona eşqini izhar edir. Qadın ona deyir ki, get insan ol, sonra gələrsən. Div gedib çoxlu kitablar oxuyur və insana çevrilib gəlir. Qayıdanda görür ki, qadın ailə-uşaq, pis qismət əlindən yorulub. Div ona keçmişdə olanları xatırladır. Qadın isə onu söyüb qovur. Belə olan təqdirdə div ondan küsmür, çünki bilir ki, insanın xislətində belə naqisliklər var. Bütün bunlarısa divə oxuduğu çoxsaylı kitablar başa salmışdı:

*Div qınamadı qadını,*
*taleyindən gileylənmədi.*
*Güldü bir az*
*başına gələn bu işə...*
*Bilirdi,*
*çoxdan bilirdi ki,*
*gec-tez itirəcək o qadını.*
*Axı hədər getməmişdi*
*kitablara dustaq olduğu günlər.*
*O günlərə*
*ürəyi kiçilmiş div girib,*

*div ürəkli insan çıxmışdı.*
*Sevinirdi*
*insanlığın bu ilk səhərinə.*
*Bir insan səhəri*
*qalib gəlmişdi*
*neçə illik div kədərinə!*

Poemada Div obrazı şərtilik kontekstində təqdim edilir. Yəni o, insana çevriləndə insan kimi, div olanda div kimi əzab çəkir, qəbul olunmur. Qadın isə divə "yox" deyib, amma insanla qurduğu ailə də ona səadət gətirməyib. Bir sözlə, heç kəs xoşbəxt deyil. Amma nəyə görəsə, nağılın qəhrəmanı divdir, qadın deyil. Çünki dəyişən, insanlaşmaq üçün yol keçən, tale yaşayan obraz divdir. Digər poemalarla müqayisədə bu əsərdə bədii dilin zənginliklərindən şair adətincə istifadə etməyib, əksinə, təhkiyəni əsas götürüb, nəqlə üstünlük verib. Bu isə hər nə qədər şeirin ahənginə uyğun məsələ olmasa da, nağıl ritmi üçün keçərli üslubdur. Poema 1964-cü ildə yazılıb. O dövrün ədəbi ab-havasını xatırlayanda şairin yenilikçiliyinin uzaq tarixçəsi tam mənzərəsi ilə oxucuya aydın olur. Və div obrazı, əslində, Vaqif Səmədoğlu yaradıcılığı üçün gözlənilməz obrazdır. *Elias Kanetti* yazır ki: *"Əsl şairlər öz personajları ilə onları yaradandan sonra qarşılaşırlar".*

**"YEDDİ MƏKTUB"**

Bu poema digər poetik nümunələrdən daha artıq melanxolik, hüznlüdür. Məktubdan məlum olur ki, qəhrəman acılar çəkir, sevdi-

yi insan başqası ilə ailə həyatı quracaq və günlər keçdikcə onların əbədi ayrılığının da vaxtı daralır: Obrazın aqibəti bir neçə məktubda aydınlaşır:

*Taksiyə minəndə*
*kölgəmə sataşdı gözüm.*
*Yer üstündə*
*bir az da bükülmüşdü*
*kölgəmin beli.*
*Yaxud başqa bir misala baxaq:*
*Dar teleqraf pəncərəsindən*
*neçə insan əli*
*uzanacaq məktubuna.*
*İtəcək əlimin tənhalığı*
*əllər içində...*
*Bir misal da əlavə edək:*
*Birdən*
*bir rus qarısı*
*dayandı qarşımda.*
*Gözlərimə baxdı,*
*baxdı gözlərimə,*
*gözlərimə baxdı.*
*Sonra*
*xaç çəkdi sinəsində*
*onun qoca, qabar əli.*
*Gör nə günə qoydun məni...*

Bu poemanın ümidsizliyinin içində bir insan ümidi işığı var. *Alber Kamyu "Yad"*da yazır ki: *"İnsan heç zaman tam bədbəxt olmur"*. Doğrudan da, belədir, Tanrı heç zaman bütün işıqları söndürmür. Nəsə bir ümid poema boyunca gəzinir. Və arzusunu itirmiş insanın bütün dünyanı dinləməsi və hər şeydən xəbər gözləməsi dəhşətli bir detalla *"Dördüncü"* məktubda açıqlanır:

*İki qonşum var.*
*İkisi də şikəst.*
*Lal,*
*kar...*
*Dillərini də,*
*qulaqlarını da*
*tapşırıblar əllərinin çevikliyinə.*
*Əllə deyib*
*əllə eşidirlər.*
*Beləcə də söhbət edirlər,*
*kommunal evimizin*
*kirli mətbəxində.*
*İndi onlar da evdədirlər,*
*mən də.*
*Onlar mətbəxin kir qoxusunda.*
*Mən*
*otağımın həsrətxanasında.*
*Amma otağımdan eşidirəm,*
*eşidirəm onları.*

*Çünki söhbətləri səndəndir,*
*səndən,*
*səndən...*

Yeddinci məktubda da oxşar ovqat əks olunur, sadəcə bu hissədə vəziyyət daha sərt tondadır. Şeirin qəhrəmanı ölüm arzusuyla ölüm qorxusu arasında qalır. Sonuncu hissədə isə sətirlər var, amma sözlər yoxdur, bütün fikirlər sanki yarımçıq qalıb. Bu poemada əsas məsələ oxucunu obrazın ovqatına kökləməkdir. Yəni o hüznü, həmin ağrını oxucu da müəlliflə paralel keçirir.

## "ŞƏFFAF BALIQ"

Vaqif Səmədoğlunun ən mürəkkəb poeması, məncə, *"Şəffaf balıq"*dır. Dünyadan bezmiş, sakitləşmək, ruhi rahatlıq tapmaq üçün dənizə gedən qəhrəman öz içində bütün ümidsizliyini, qaralan arzularını, haçalanan fikirlərini də aparıb. Özündən xilas olmağı bacarmayan insan həmişə ruhi axtarışlarda olur: insanı bu yola Tanrı yönəldir. İnsan təbiətin nəhəngliyində və ədədi mahiyyətində öz dərdinin kiçikliyini anlayır, nəticədə özünün fonunda gördüyü dünya haqqında ətraflı düşünür. Poemada "Kapitan"a müraciət var. İlk baxışdan kapitan obrazı Allahı simvolizə edirmiş kimi görünür, sonra məlum olur ki, elə deyil, Vaqif Səmədoğlu hər kəsi öz adı ilə çağırır:

*Göndərdiyin*
*yuxulara baxdım,*
*çox sağ ol, kapitan.*
*Küləklə doldu ömrüm*

*Yelkən sayağı.*
*Üzüldü*
*yer üzündən*
*get-gəlimin ayağı.*

Poemada müxtəlif məsələlər üçün kapitana müraciətlər var, amma bu məqamda kapitanın kimliyi aşkara çıxır:

*Dənizin dibi qayıqlarla dolur!*
*Onlara toxunsaq,*
*Batacaq gəmin, kapitan!*
*Səkilərin tozuna enəcəyik.*
*Evlər sovuracaq*
*bizi içinə,*
*otaqlara ilişəcəyik, kapitan!*
*Evlər sovuracaq bizi içinə,*
*otaqlara ilişəcəyik, kapitan!*
*Meyitimi tapmayacaqlar,*
*qalxacaq*
*göy üzünə*
*ömrümün*
*nazik sapa bağlı çərpələngi.*
*Kəsiləcək sap,*
*ulduz kimi axacağam*
*Yer üzünə, kapitan!*
*Nəyinsə son nəfəsi olacaq, bəlkə,*
*ölümümün ulduz axını...*

*Kapitan, ayıq ol,*
*ayıq ol, kapitan!*
*Qapanmasın gözlərin bir an.*
*Allah*
*insan ağzıyla deyir:*
*– Yoxam...*
*eşidirsənmi, kapitan!!!*

Sonra Şəffaf balıq peyda olur və onun daxilindən ətrafa və kapitana baxır poetik qəhrəman. Sanki bir canlının içindən başqa bir canlı seyr edilir və ətrafın – hər şeyin mahiyyəti bir-birinin içindən görünür. Və məlum olur ki, onların bir-birini görməsi və bir-biri üçün var olması məhz şəffaf balıqdan asılıdır:

*Bilirdin,*
*bilirdim,*
*yox olardıq,*
*biryolluq*
*üzüb getsə şəffaf balıq.*

Sonra qəhrəmanın şəxsi dünyasının gizlinləri açılır və bu sirlər pərdəsinin arxasından poetik psixologiya meydana çıxır. Və şəffaf balığın vasitəçi mahiyyəti açılır:

*Dərdim yayıldı dənizə,*
*qalxdı üzə*
*ada-ada.*
*Balığa dərdimi dedim*
*ürəyimin jarqonunda...*

*Anlamadı...*
*Şəffaf bədən,*
*şəffaf beyin,*
*şəffaf ürək,*
*şəffaf dünya,*
*taleyimizin şəffaflığı*
*şəffaf balıq...*

Bu məqamda *Nazim Hikmət*in *"Masalların masalı"* şeirini xatırlayaq:

*Su başında durmuşuz.*
*Önce kedi gidecek,*
*kaybolacak suda sureti.*
*Sonra ben gideceğim,*
*kaybolacak suda suretim.*
*Sonra çınar gidecek,*
*kaybolacak suda sureti.*
*Sonra su gidecek*
*güneş kalacak;*
*sonra o da gidecek...*

Oxşar mənzərə bir qədər fərqli situasiyada bu şeirdə də yaranır:

*Sən,*
*Balıq.*
*Mən.*
*Vaxt gec,*
*dəniz gecə.*

*Yox olduq*
*dənizə atılmış*
*iki xırda gecə kimi.*

Sonda isə bütün bu ağır fon, daxili narahatlıqlar, ruhi təbəddülatlar məişət mənzərəsi ilə dağılır. İnsan tənhalığı, ağrılı düşüncələr, Allaha sığınan obrazın dünyaya nəzəri – bir şəffaf balığın içindən baxması, bir sözlə, hər şey yox olur. Qəhrəman başqa bir dünyadan real dünyaya qayıdır:

*Yeridim qayalara sarı,*
*Sonra sola,*
*asfalt yola.*
*İrəli.*
*Abbasın dükanından o yana,*
*Avtobus stansiyasına...*

Vaqif Səmədoğlu yaradıcılığına xas bu cür sərt keçidlər, dünyalar arasındakı gəzişmələr, sərhədlərə sıçrayış bu poemada da var. *Benedetto Kroçe*nin bir təhlil yazısında belə bir yekun fikri var ki: *"Poeziyada faktlar yoxdur, ancaq sözlər var, reallıq yoxdur, ancaq obrazlar var"*. *"Şəffaf balıq"* da belədir, orda bütün "faktlar", "reallıq" sadəcə obrazın yaşantısıdır, lap düzü, onun özüdür.

## "ATAMIN MƏKTUBLARINA CAVAB"

Vaqif Səmədoğlunun bu poeması, əslində, bir qədər gecikmiş cavab hesab oluna bilər. Çünki poemadan açıq-aşkar görünür ki, şairin atası hara getsə evlərinə məktub yazar, evin Vaqifdən başqa digər

sakinləri də o məktublara cavab yazarmış... Amma burada bir incə nüans da var: Vaqif Səmədoğlu məktublara cavab yazmasa da, bir məqamı xüsusi olaraq qeyd edir:

*...mənim bir söz deməyib*
*otaqları gəzməyim.*

Bu misralardan aydın olur ki, evdə hər kəs məktuba cavab yazmaq hayında olanda Vaqif Səmədoğlu möhkəm darıxar və otaqlarda var-gəl edərmiş. Amma bu məqam şeirdə incə tərzdə verilib, Vaqif Səmədoğlu yaradıcılığına xas bəzək-düzəksiz, səmimi şəkildə çatdırılır.

Şeir bir insan itkisinin başqalarının həyatında ifadə etdiyi mənanın şərhi ilə başlayır və qəfildən müraciətə adlanılır və dünyanın adiliyi, hər şeyin təkrar olduğu diqqətə çatdırılır. Bu – hər şeyin təkrar və adi olması həm də dünyadan köçənə təskinlikdir: *"Bax, sən bu dünyada yoxsan, amma dünya elə həminki kimidir, yenə də insanlar doğulur və ölürlər, həyat bu sayaq cür təkrarlardan ibarətdir"*:

*Yer kürəsi fırlanır*
*əvvəlki qaydasıyla,*
*Ölüm dost-aşna*
*tapır özünə hələ.*

Yaxud:

*Ata, dünyada hələ*
*ölümün müttəfiqləri,*
*dostları var.*
*Sən ki görmüşdün onları,*
*onlarla vuruşanları.*

Poetik fikir başqa bir təskinliklə davam edir, amma bu təskinlik hansı mənanı ifadə edir, nəyə xidmət edir, bunu demək bir qədər çətindir. Şeirin bu məqama – çıxılmazlığa gəlməsi isə çox məntiqidir, dünyanın dəyişməməyi kimin üçünsə bir tərəfdən təskinlikdir, digər tərəfdən isə çarəsizlik. Çünki dünyanın dünənində də, bu günündə də çoxsaylı bəlalar, bədxahlar var. Əgər onlar mövcuddurlarsa, deməli, gedən – dünyadan köçən geridə qalanlardan narahat olmaqda haqlıdır:

*Arxayın ol hər şeydən!*
*Tükənmir barı*
*qarış-qarış gəzdiyin*
*torpaqların,*
*Yenə başı dümağdır*
*sevdiyin dağların.*

Vaqif Səmədoğlu əksər şeirlərində mənanı dərində gizlədir. Çünki kökdəki mənaya çatanda bir həqiqətə yetmiş olursan, fikir çaşqınlığı yaşamırsan. Şeirin finalına baxaq:

*Hər dəfə*
*görürəm heykəlini.*
*Məni ayırmırsan*
*ətrafında dolanan insanlardan.*
*Bakıya baxıb,*
*Vətənin səsinə qulaq asırsan...*
*Yanından keçənlər,*
*ayaq saxlayıb bir an,*
*baxırlar sənə,*
*Səməd Vurğuna.*

*Mən də baxıram.*
*Baxıram*
*cavan ölmüş Məhbub nənəmin*
*Salahlıdan gedib,*
*heykəl olmuş*
*qarayanız oğluna...*

Şeirin sonunda bu itkinin şair tərəfindən həm bir vətəndaş, həm də oğul kimi yaşandığı vurğulanır. Məhbub nənə obrazının şeirə əlavə olunması də məhz ailə kontekstini, itkinin bir ocaq üçün hansı mənaları ifadə etdiyini nəzərə çarpdırılır.

Bu poemada ölümə münasibətin iki üzü aydınlaşır: ölümün şəxsi və ictimai faciə olması. Eyni zamanda böyük insanların, millət adamlarının yoxluğunun xalq üçün hansı mənanı ifadə etdiyi anlaşılır. Vaqif Səmədoğlu məna dolabını hər poemasında bu cür ləbaləb doldurur. İlk baxışdan sadə görünən mətləbin bütün dərinliyi sonradan oxucuya faş olur. Ona görə də Vaqif Səmədoğlunun şeirlərini çox zaman oxucular sonradan daha yaxşı anlayır, necə ki peşman olanda, yaxud iztirab anında nə vaxtsa etdiklərimiz bizə daha dərin anlaşılır. Bu poema həm də Vaqif Səmədoğlunun atası ilə yenidən söhbət etmək arzusunun ifadəsidir: *"Poeziya söhbətdir. Artıq üzbəüz danışmaq üçün çox gec olan insanlarla söhbət"* (**Dennis Odriskoll).**

## "BÜDRƏMƏLƏR"

Vaqif Səmədoğlunun "Büdrəmələr" poeması bütövlükdə insanın poetik tarixidir. Poemada təbiət hadisələri durmadan təkrarlanır, an-

caq o təkrarların içində yeganə təkrarlanmayan varlıq insanın özüdür. Hərçənd nəsillər, dünyadan gəlib keçmiş insanlar haqqındakı misralardan bizə elə gələ bilər ki, insan da təkrarların içindədir, amma qətiyyən belə deyil. Çünki hər insan dünyanı yenidən tanıyır,fərqli anlamlarda kəşf edir və hər səhv, hər bilməzlik insanın öz aləmində təzədir. Ona görə insan daim düşdüyü vəziyyətdən çıxmaq üçün fərqli yollar arayır. Sonra poemada dünya tarixindən bir otağa – insanın lokal dünyasına ani keçid edilir, ictimai məzmun fərdiləşir, fərz eləyin, insan özünü hamıdan ayıraraq öz tənhalığı ilə individuallaşdırır. Sonra yenidən təbiətin bir hissəsi olan heyvanat aləminə – marala keçid edilir. Daha sonra canavarın timsalında dünyanın dərki yolları aranır. Sonra yenə lokal aləmə – küçəyə baş vurulur. Ən sonda qadından söhbət açılır və şair bütün sadaladıqları haqqında eyni sözü deyir, yekun xitabı dəyişmir: “müdriksən, müdrik”. Müəllif bütün tərəfləri ona görə “müdrik” adlandırır ki, o, bütövlükdə dünyanı bir təcrübə ünvanı kimi qavrayır. Hər kəs həm öz ömrünün, həm də ətrafındakı hər şeyin həyatı ilə birgə, bir-birinə qarışmış təcrübəsidir. İnsan, əslində, ətrafındakı heç nəyi sonacan tam anlaya bilmir, sadəcə dərk etmək imkanı qədər ətrafdakı hər şeylə ünsiyyətdən təcrübə qazanır. İnsanın bu cür acizanə dərkini müəllif sonda təslimiyyət nidası ilə olduqca məntiqi şəkildə tamamlayır:

*Yuxarı qaldırıb əllərimi*
*və bağıracam sinə dolusu:*
*– Təsliməm, İlahi!..*

**"KÖÇƏRİ QUŞLAR"**

Bu poema çağırış, müraciət intonasiyasındadır. Tələsən, harasa getmək istəyən, ona görünən yolun yolçusu olmaq ehtirası ilə alışıb-yanan və bunu əsaslandıran bir insanın nitqidir bu şeir. Və bu gedişin ünvanı göy üzüdür – bu məqam həm Haqqa qovuşmaq kimi başa düşülə bilər, həm də pak aləmə. Əsas olan isə uzaqlaşmaq və bundan qorxmamaqdır. Çünki insan qorxanda xeyri, yaxşılıqları unudur:

*Qorxma,*
*qorxma*
*qanadlarımız o an*
*qüvvətlə dolacaq.*
*Düşəcək yadımıza*
*Canavarların,*
*pələnglərin,*
*durnaların,*
*ata-babalarımızın təcrübəsi.*

Vaqif Səmədoğlu göstərir ki, qorxaqlığımıza görə hər şeyi – həm heyvani, həm də insani duyğu və vərdişlərimizi itirmişik. Nəticədə həm ilkinliyimizi, həm təkamül gücümüz qeyb olub. Və getdikcə şeirdəki siyasi nitq daha böyük cəsarətlə, qətiyyətlə ucalır:

*Başa düş məni,*
*nə böhtandan qorxum var,*
*nə ləkələrdən.*
*Bilirsənmi*

*orden kimi gəzdirərdim sinəmdə*
*böhtanları,*
*ləkələri,*
*ulduzlarla dolu*
*göy üzünü.*
*Paqon kimi daşıyardım çiynimdə,*
*ancaq onun-bunun iradəsiylə*
*basılmamış qapımızın zəngi.*
*Başqa ayaqların sürətindən*
*asılı olmamışkən addımlarımız*
*göy üzünə çatmalıyıq biz.*

Vaqif Səmədoğlu getməyin mütləq uğur, ümid olduğunu sanmır, belə "*heç ümidin cənubuna*" yetməyəcəyini düşünür. Onun çağırdığı naməlum adam da getmək istəmir və bəlkə də, bu poemanın əsas qəhrəmanı həm də elə odur.

*Hər otağın öz qanunu,*
*öz məntiqi var.*
*Bu otaqların qanununu*
*mən yox,*
*Doğulmağım*
*və sağ qalmağım pozur.*

Yaxud da:

*Üzümə bağlıdır,*
*məntiqlə açılıb-örtülən qapılar.*
*Dəyə də bilmərəm onları...*

Əsl faciə şeirdə fonda görünən obrazın faciəsidir, o cib saatını, köynəklərini, Vətən həsrətini qoyub gedə bilmir, baxmayaraq ki, gedənləri buradan nifrət yola salır, amma yenə də kinin, paxıllığın, düşmənliyin əlindən xilas olmaq onun üçün çətindən çətindir. Burda getmək istəyən, köçəri quşlara qoşulmağı arzulayan özü də Vətəndən əl çəkə bilmir, onun gözəlliklərini unutmayacağını dilə gətirir, bütün naqis cəhətləri ilə bərabər. Vaqif Səmədoğlunun vətənsevərliyi məhz bu cür dərindədir; qışqırıqsız, pafossuz, haray-həşirsiz...

**"ROBİN QUD"**

V.Səmədoğlunun *"Robin Qud"* poemasını xatırlayaq: Poemanın qəhrəmanı dəli olub, ancaq heç kəs onun niyə dəli olduğunu dəqiq bilmir. Günlərin bir günü kəndə *"Robin Qud"* filmi "gəlir". Filmin sonunda qəhrəman öz sevgilisinə qovuşur. Bu filmi Topal (dəli) da seyr edir və ondan sonra onu film göstərilən yerdən çıxarda bilmirlər. Çünki o, müharibədən sonra xoşbəxtliyinə qovuşmuş insanı məhz orada tapır. Amma bunu heç kəs anlamaq istəmir, onu zorla oradan çıxarırlar və dəlixanaya aparırlar. Əsər belə tamamlanır:

*Bilirdi ki,*
*Bu qaranlıq*
*dünya boyda olsa da,*
*sadiq dostlar*
*yetirəcəklər özlərini Robin Quda.*

Poemada əsas olan inam məsələsidir. Yəni insan inandığı həqiqətin ardıyca gedir, ona dönə-dönə qayıdır. Çünki inam ruh ilə bağlı

məsələdir, inanmaq ruhun saflığından irəli gəlir. Rafiq Tağının "Əsli və Kərəm" adlı hekayəsi var, əsərdə baş qəhrəmanların uşağı olmur. Onlar həyatlarındakı rəngsizliyi doldurmaq üçün daim komediyaya baxmağa gedirlər. Günlərin bir günü onların "teatr səfəri" faciəyə təsadüf edir. Faciədə isə baş qəhrəman uşaqdır. Daha o hadisədən sonra onların hər ikisi çalışırlar ki, faciəyə baxmağa getsinlər. Çünki faciədəki uşaq onların ümidsizliyinin bitəcəyi günə olan inamlarıdır və onlar hər dəfə faciəyə baxmağa getməklə həm də öz inamlarının ardınca gedirlər. Necə ki *"Robin Qud"* poemasında qəhrəmanın sevgilisinə qovuşduğunu görən dəlinin qəlbinə inam hissi hakim kəsilir.

**"REKVİYEM"**

Bu poemanın ideyası budur ki, biz öz iradəmizdən asılı olmayaraq, bu cahana gəlirik, kimin uşağı, hansı vətənin övladı kimi doğulmaq, hansı dənizin sahilində bu dünyaya göz açmaq bizim ixtiyarımızda deyil. Bəs ölüb yenidən diriləndə – axirətdə, yaxud başqa bir varlıq kimi bu dünyaya qayıdanda, görəsən, bizə yaranışımızla bağlı seçim imkanı veriləcəkmi? Biz daş, küçə, kol, türbə, araba təkəri, qaya ətrafında dolanan kölgə, yaxud bir may səhəri kimimi dünyaya gələcəyik? Məsələn, şair düşünür ki, Dilcan dağlarının dolama yolları olmaq pis olmazdı, sonra isə fikirləşir ki, o yollardan qırx üçüncü ildə ağır hərb maşınları dağa gedən köçü basıb və oxşar hadisə onun gələcək həyatında da ola bilər...

*Serpuxovda dayanmayıb*
*Moskvaya çatan qatarın*

*səsi olmaq pis olmazdı...*
*Damından payız yağışı axan*
*yük vaqonlarında qatillərlə,*
*canilərlə bir yerə*
*atılmış şairlər olmasaydı...*

Şair birdən xəyal eləyir ki, yeni həyatında pələng olmaq olar, sonra yadına düşər ki, köhnə at əti yeyib Tokio heyvanxanasında saxlanmaq təhlükəsi də var. Poema boyunca insan nəyəsə ümid edir və dərhal da bel bağladığı məsələ ilə əlaqədar təlaşa düşür. Vaqif Səmədoğlu bu durumu *"qorxuyla ümidin müttəfiqliyi"* adlandırır. Həyatı *"qorxuyla ümidin mühasirəsi"*ndə təsvir edir. Bütün bu ümid və ümidsizlik sadalamaları sonda azadlıq düşüncəsi ilə yekunlaşır. Sonra min bir tərəddüdlə də olsa, dilə gəlir ki, *"azadlıq olmaq pis olmazdı, sonradan azadlığı boğmaq gərək olmasaydı"*. Və poema belə sonlanır: *"Düşdün ümidlə qorxunun mühasirəsinə. Çıxdın. Allah rəhmət eləsin"*. Deməli, ölüm bizi qorxuyla ümidin əsarətindən qurtarır. Amma kimsəyə elə gəlməsin ki, o, başqa bir varlıq kimi dünyaya, bəşəriyyətə daha artıq xidmət edə bilər. İnsan öz ilahi missiyası ilə ucadır. Vaqif Səmədoğlu, əslində, bütün tərəddüdlərindən sonra insanın Tanrı tərəfindən müəyyənləşdirilən missiyasına inanır. Nizami Gəncəvi Allahın insana və təbiətə tapşırdığı missiya haqda belə yazır:

*Kimə səxa verib bəxşiş paylasın,*
*Kimi xəsis edib daim pay alsın.*
*Nə pay alan bilir bu işləkləri,*
*Nə pay verən bilir bu hikmətləri.*

*Nə atəş bilir ki, yandırıcıdır,*
*Nə də su bilir ki, dirilik saçır.*

Nizami Gəncəvi ilə Vaqif Səmədoğlu məhz bu müstəvidə (insan üçün əsas olan ilahi missiyanı yerinə yetirməkdir) birləşirlər, sadəcə Nizami həmin məqama inamla, imanla, Vaqif Səmədoğlu isə ruhi təbəddülatlarla, şübhələrlə gəlib çıxır. Əlbəttə, bütün bunlar aydın həqiqətlərdir, ancaq əsas olan onların fərqli səslənişləri və təqdimləridir ki, onları bunca sevdirir. Konstantin Paustovski bu barədə yazır ki, *"Poeziyanın qeyri-adi bir xüsusiyyəti var. O, sözə özünün ilkin formasını, bakirəliyini qaytarır. Ən çox istifadə olunmuş, ən çox deyilmiş, sanki artıq dadı-duzu getmiş sözlər də poeziyada parlaya, cingildəyə, özünü yenidən göstərə bilir"*. İki şairin dünyagörüşü timsalında Paustovskinin dediyi məsələ daha böyük müstəvidə həqiqət gücünü bəyan edir.

**"KÜLƏK"**

Bu poemada Vaqif Səmədoğlu yaradıcılığına xas ağırlıq, hüzn, aqibət həsrəti aydın görünür. Şəhərə külək gəlməsi gözlənilir. Adi təbiət hadisəsi olan külək fövqəlqüvvə kimi gözlənilir, insanlar onun intizarındadırlar. Poemada ətraf mühit təsvir edilir və hər hissə *"Şəhərə külək gəlir, külək gəlir şəhərə"* hissəsi ilə tamamlanır:

*Bütün dünya boyanır indi*
*əsəblərin, hisslərin rənginə.*
*İndi dünya səhnə yox, səhnə arxasıdır.*
*adlarla tanıyırıq hamını.*

*Bilirik divlərin*
*və Məlikməmmədin kim olduğunu,*
*bilirik qrimsiz simurq quşunun*
*neçə div balasını ac qoyduğunu.*

Vaqif Səmədoğlunun başqa şeirlərindəki kimi bu poemada əsas məqsəd dünyanın şairin özünə sirr olan mahiyyətinə münasibətidir. O özünə sirr olan, yaxud özünə daha yaxşı aydınlaşmış mətləbi izah edir və nəticədə şeiri bir təəccüb faktı kimi təqdim edir:

*Yalan demək olar*
*sevilmək üçün,*
*ancaq gün gəlir*
*yaddan çıxır mühitin*
*ən gözəl, ən ağıllı tələbləri.*
*Bilirsinizmi*
*çətindir necə*
*vətəndə vətən həsrətiylə yaşamaq?*

Sonda külək bir çarəsizlik simvolu kimi görünür, hər kəsi küncə qısnayır və həqiqətlər bu cür sıxışdırılmalarla meydana çıxır, aşkarlıq qazanır:

*Quşlar çırpınır*
*Bağlı pəncərələrə...*
*Şəhərə külək gəlir,*
*Külək gəlir şəhərə...*

Vaqif Səmədoğlu şair mənini mərkəzdə saxlamağa, onun nəzəri ilə dünyaya baxmağa və sonda hər şeyi onun rakursunda cəmləməyə

meyilli şairdir. Bu cəhət şeirdə polifoniyanı azaldır, amma poetik əsərdə haçalanan xətlər eyni nöqtədən ayrılır və bu da müxtəlif fikirlərin meydana gəlməsinə şərait yaradır. Və onun əksər şeirində olduğu kimi, adi reallıqdan siyasətə, şəxsi hisslərdən ortaq yaşantılara yeni qapılar açılır – qəfil körpülər atılır.

Bu poemanın başqa poemalardan fərqli cəhəti həm də ritmindədir, şeir mahiyyət etibarı ilə olduqca unikal şəkildə intizar ovqatına köklənib, sadalamalar, fikir gedib-gəlmələri, müraciətlər hamısı həmin məlum ritmi təkrarlayır. Və bu təkrarlar özü də intizar ovqatı yaradır: bir təkrarda tamamlanan fikrin ardını növbəti başlanğıcda – əslində, növbəti təkrarda tamamlanacağını düşünürsən. Poemanın yuxarıda nümunə gətirilən finalı isə, əslində, təkrarların məntiqi, şeirdəki ideyaların ortaqlaşdığı anın poetik yekunudur.

**"BUM-BUM"**

Bu poema uşaq ədəbiyyatına aid bədii nümunədir. Meşədə heyvanların vahiməsindən bəhs edir. Bütün heyvanlar "bum-bum" səsindən qorxurlar, sonda məlum olur ki, yel ağaclardan almaları yerə salanda o səs çıxır və meşədəki ən yırtıcı heyvanlar da o səsdən qorxurlar. Poema oxunaqlı bir dillə yazılıb, Vaqif müəllimin özünəməxsus ironiyası – gülüş doğuran sonluqla aydınlaşır. Alt qatdakı mənada isə böyük güclərin kiçik şeylərdən qorxması və əksər yaradılmışların bir-birinə qorxu təlqin etməsi kimi dərin, ibrətamiz məsələlər dayanır.

**Nəhayət,**

Vaqif Səmədoğlunun dərin, intellektual poeziyası daim təkrar-təkrar müraciət edilən, qayıdışa geniş imkanlar açan yaradıcılığı digər istiqamətlərdə olduğu kimi, poema janrında da müstəsnadır. Bu poemalar – uzun şeirlər çağdaş Azərbaycan şeirinin genişlənən poetik nəfəsində xüsusi rol oynayacaq. Və bu kitab inanıram ki, Vaqif Səmədoğluna başqa yöndən – özünün oxunmasını istədiyi səmtdən qayıdışa ciddi, səviyyəli və sədaqətli oxucuları sövq edəcək.

*Şair Fərid Hüseyn*

# POEMALAR

## ROYAL

Gecədir,
gözlərim açılır, yumulur.
Gecəm qotur,
qaranlığım kələ-kötür.
Yuxusuzluğun
uzun muğamına
mığmığa züy tutur...
Gecə oxuyuram,
ömrümü toxuyuram
kainat koridorlu,
kainat qapılı,
kainat pəncərəli
vaxt emalatxanasında.
Kainatın İnsanxanasında...
Düşür yerə cında-cında
arzularımın bir vaxt möhkəm,
yumşaq parçası.
Dolanır
yer üzünü
ürəyimin, düşüncəmin qaraçısı.

Günəş dilində,
torpaq dilində,
yağış ləhcəsində,
külək ləhcəsində
anlamadığım
min səs eşidirəm.
Yaşayıram
əllərimi səbrimin cibinə soxub
əcnəbilər arasında.
"Küləkcə-Məncə",
"Məncə-Yağışca"
lüğətlər olsaydı...
Sürünürəm arzu-arzu,
dilək-dilək.
Büdrəyirəm
Çarli Çaplinin əsasıtək.
Qar yağanda
qağayıların yuxusu
düşündürür məni,
üşüdür məni...
Və bu seyrək,
ürkək
gecənin qapısında
nəhəng Sfinks heykəlitək
dayanıb royal.

Qara royal, royalım,
rəngarəng röyalarım...
Otaq soyuq idi,
döşəmənin parketi
çarlston rəqsinə
bənzəyirdi.
– Sabahın xeyir.
– Salam, salam.
– Dünən niyə gəlmədin?
– Allaha and olsun, vaxtım olmadı.
– Sabah gələcəksən?
– Yox. Vaxtım olmayacaq.
Bu gün mən səni gözləmirdim.
Sən həmişə Sabah, ya
Dünən lazım olursan.
Gün isə həmişə Bu gün olur.
Döşəmənin parketi
çarlston rəqsidir...

Şəhərə qar yağırdı
qərib-qərib.
Şəhərə qar yağırdı
qəlib-qəlib.
Moskva qış idi,
Moskva yaş idi...

Beş ay palçıq səsi,
beş ay
“kimsəsizlər kimsəsi”,
beş ay kilsə kölgələri
palçıq olmuş qar üstündə...

Qaynayırdı
əqidənin
ən yekə qazanı,
yayılırdı şəhərə
yumşaq,
qar əzanı...

Metro qoxusunu
unuda bilmirəm.
Baca tüstüsünü
sevdiyimtək,
Buzovna qayalarını
sevdiyim qədər,
sevirdim səni Yana!
Yana,
Yanacığaz,
Polyak qızı!
Ağlım olsaydı onda,
Allah olsaydı onda,
bir dəfə də öpərdim
sol əlinin ovcundan.

Polşada
gözəl plakatlar çəkirlər,
Yana.
Nə?
Nədən danışım
indi səninlə?
Qara maşında
qapqara zəncilər gedirlər
Kremlə.
Vittorio Hassman
olmuşdu Hamlet
təkbaşına.
Mənə
Novruz bayramında
anam nə göndərəcək?
Tik-tik-tak...
Dostum şeirlərimi köçürür
makinada.
Telefon zəngi...
Telefon dəstəklərimizin
qantel dövrü başlanıb.
Az ağla, bacım...

Yarpaq-yarpaq,
budaq-budaq,
ağac-ağac
meşə.
Burda qar
qar rəngindədir.
Ətrafda
kilsə-kilsə,
monastır-monastır,
məzar-məzar,
zavod-zavod
Rusiya izləri.
Meşə qar rəngindədir.
Uzaqda
əsgərlər addımlayır.
İnsanlara
bənzəyirlər uzaqdan.
Kimdir orda bağıran?
Şair pıçıldayır
öz-özünə...
Vətəndaşıydım
kədər məmləkətinin.

Bir sən,
bir şəhər,
bir qatar varıydı,
min mən.
Vaqonun
dar daxmasından
başlandı ayrılıq...

İndi mühacirəm
ayrılıq məmləkətində...
Bu şəhər yenə Bakıdır.
Göy üzü
xoş xatirətək ılıq,
balıq-balıq
parlayır şəhər
yağışdan sonra.
Dəniz
yenicə doğmuş
ana üzütək aydın.

Müharibə qaçqınlarıyla
dolmuş gəmitək
aralanır limandan,
ayrılır məndən
qara yelkənini qaldırmış
royal...

*1964*

## DİVİN NAĞILI

*O, mavi gözlü bir divdi, kiçicik bir qadın sevdi.*

Nazim Hikmət

Div, nə div!
Bir div idi ki, o
nə bir evə, nə yalana,
nə hindin, nə ərəbin,
nə də ki, bizim nağıllarımıza
sığa bilərdi.
Belə div idi!
Sevdiyi qadın isə
doğulub,
yaşamağa başlayan
insanlardan biriydi.
Göyçək, amma adi.
Onu da gəlib div sevdi!
Sevdi, nə sevdi!
Bizim kimi yox,
div balası div kimi!
Sevib, yenə, yenə də sevdi.

Və qadın qorxmasın deyə,
Bir addıma addayıb dəli bir çayı
o taydan
– Səni sevirəm, qadın, sevirəm...
– dedi.
Qadından:
– Get, insan ol... – sözlərini eşitdi.

Başını aşağı salıb,
insan olmağa getdi...
Çoxlu
yoğun, samballı
kitab aldı,
bir nurani,
dünya görmüş qocadan.
Varaqlayıb kitabları
oxudu gah pəsdən, gah ucadan.
Neçə il,
təmiz havaya da çıxmadı,
divlərin yaşadığı
tozlu mağaradan.
Kitablar
dəyirmanda buğda kimi çox idi.

Div də onları
beş-on ay,
beş-on il oxudu.
Nəhayət,
bir gün
son kitabın son varağı
yavaş-yavaş, əsə-əsə
sağdan sola qalxıb endi...

Uzun çəkən ibadəti
qurtarmış dindar kimi
ayağa qalxdı div.
Kiçilmiş sırtını
sürtüb divara
genəlmiş mağaradan
eşiyə çıxdı.
Böyümüş dünyaya baxdı!
Gördü daşların dağ,
bulaqların çay,
gölməçənin dəniz olduğunu!

Anladı belə nəhəng şeylər
                        içində
Ümidin necə gərək
                        olduğunu...
Tərpənib,
sevdiyi qadına sarı
saldı yolunu...

Evin dirəyi o qadın idi.
Uşaqları "xalxın
uşaqlarından",
əri "xalxın ərindən pis",
üzüyü Gülsümün üzüyündən,
paltarı "yüzünkündən" pis o qadın.
Divi çoxdan itirmişdi
uzaq gənclik çağlarından
götürməyi unudub.
Özünə də,
özgəyə də inandırmışdı
divin yuxu olduğunu...
Odur ki tanımadı
qarşısında dayanan adamı...

– Bəhram çayxanadadır – dedi.
Div isə:
– Yadındamı, mən div idim,
nəhəng div idim – dedi.
Nə ərəbin, nə hindin,
nə də sizin nağıllara sığa
                                        bilərdim.

Yadındamı,
səni sevirdim,
yadındamı, mənə "insan ol",
                                        dedin?
Bax... insanam,
inanmırsansa,
sənə İspaniyadan danışım...

O qadın üç gün idi ki,
ev-eşikdən,
ər-uşaqdan təngə gəlib,
partlamağa hazır idi.
Partladı, nə partladı,
bu yoldan ötənin
ona sataşmağından.
Partladı, nə partladı!
Ata qalmadı,
ana qalmadı,
söydü taleyini,
söydü yolçunun qeyrətini,
mərdimazarın külfətini!
Sözünə qüvvət alıb,
çəmbərquyruq itindən,
qovdu divi həyətindən!
Div qınamadı qadını,
taleyindən gileylənmədi.
Güldü bir az
başına gələn bu işə...

Bilirdi,
çoxdan bilirdi ki,
gec-tez itirəcək o qadını.
Axı hədər getməmişdi
kitablara dustaq olduğu günlər.
O günlərə
ürəyi kiçilmiş div girib,
div ürəkli insan çıxmışdı.
Sevinirdi
insanlığın bu ilk səhərinə.
Bir insan səhəri
qalib gəlmişdi
neçə illik div kədərinə!..

*1964*

# YEDDİ MƏKTUB

**Birinci**
*Toyuna yeddi gün qalıb.*

Quraqlıq ilinin qışında
məktub aldım səndən:
“Çörək yoxdur”.
Çörəkxanaların qabağında
insan təəccübü,
insan dərdi,
insan sevinci,
insan sözbazlığı
dayanıb növbədə.
“Çörək yoxdur”, – yazmışdın
məktubun əvvəlində.
Sonra
“Tı poymi”...
Nə poymi, canım!
Allah xeyir versin,
qoşa qarıyın.
Toyunda da oynayardım
olsaydım Bakıda.

Allah xeyir versin!
Qoşa qarıyın...
Əzib səkiyə tulladım məktubunu.
Vallah, hirsimdən yox,
cibimə yük olmasın deyə.
Bir də özün yazmışdın
məktubunun sonunda:
"Porvi!",
porvi, porvi!
Atdım məktubunu
palçıq olmuş qarın üzünə...
Yorulmuşdum azacıq.
Taksi saxladım.
Taksiyə minəndə
kölgəmə sataşdı gözüm.
Yer üstündə
bir az da bükülmüşdü
kölgəmin beli.

**İkinci**
*Altı gün var toyuna*

Birdən çaşıb
məktub yazmaq istəsən mənə,
belə yaz
üstünü məktubun:
"Москва, К – 9,
До востребования,
Самому несчастному".
Dar teleqraf pəncərəsindən
neçə insan əli
uzanacaq məktubuna.
İtəcək əlimin tənhalığı
əllər içində...

**Üçüncü**
*Toyuna beş gün qaldı.*

Konservatoriyada
bu gün işim-gücüm yoxdur.
Kilsəyə getdim bu gün.
Avara-avara
dolandım
kilsənin o yanını, bu yanını.
Sonra divara söykəndim.
Baxdım ona-buna.
Birdən
bir rus qarısı
dayandı qarşımda.
Gözlərimə baxdı,
baxdı gözlərimə,
gözlərimə baxdı.
Sonra
xaç çəkdi sinəsində
onun qoca, qabar əli.
Gör nə günə qoydun məni...

**Dördüncü**
*Dörd gün qalıb.*

İki qonşum var.
İkisi də şikəst.
Lal,
kar...
Dillərini də,
qulaqlarını da
tapşırıblar əllərinin çevikliyinə.
Əllə deyib,
əllə eşidirlər.
Beləcə də söhbət edirlər,
kommunal evimizin
kirli mətbəxində.
İndi onlar da evdədirlər,
mən də.
Onlar mətbəxin kir qoxusunda.
Mən
otağımın həsrətxanasında.
Amma otağımdan eşidirəm,
eşidirəm onları.
Çünki söhbətləri səndəndir,
səndən,
səndən...

**Beşinci**
*Deyəsən, üç gün qaldı...*

Bu gecə yenə
görə bilmədim
səni yuxumda.
Bu gecə yenə
ölülərimlə rastlaşdım.
Onların da
sözü, söhbəti səndən.
Bu gecə yenə
sığındım
Yer kürəsinin künclüyünə...

**Altıncı**
*İki gün qaldı, iki gün. Sabah...*

Bu gün Moskva
qəflətən suyu qaçmış
hovuz içitək yaş.
Adamlar,
divarlar kölgəsiz...
Küçələrə
taxta tozu səpilib...
Gözlərimin qabağında
göy üzündə,
yağışda,
taxta tozuna bulaşmış
ayaqqabılar.
Metro
araq qoxusuyla dolub.
Soyuqdur.

Ekranlarda "Тишина".
Konservatoriyada
Rixter çalacaq bu axşam...

Küçələri gəzirəm,
sənə hədiyyə gəzirəm.
Seçirəm bir-bir
Moskva küçələrini.

Yaxşısı var, pisi var.
Biri geniş,
biri dar.
Ancaq hamısı yaş.
Sürüşürlər əlimdən...

Nə bir yetim dalan
qala bilir əlimdə,
nə də ki,
eynəkləri yağışla islanmış
adam üzü.
Dalan küçələrdə yox olur,
adam üzü üzlərdə.
Sürüşürlər əlimdən...

Vitrinlərdə
yanaqları qıpqırmızı manekenlərin
qımıldanmayan təbəssümləri.
Vitrin şüşələriylə
sürüşən insan əksləri
sürüşürlər əlimdən...

Qəflətən basılan
maşın əyləcinin
ət kəsən səsi
ürəyimi sıxır,
sürüşür əlimdən...

Divara sığınıb
göyərçinlər.
Səsləri elə bil
o dünyadan gəlir,
sürüşür əlimdən...

Divarlar, divarlar, divarlar...
Yamyaş taxta divar.
Yamyaş taxta qapı.
Qapı üstündə yamyaşıl
köhnə lövhə:
“Plisse, Qofre, A. Makedonskiy”,
sürüşür əlimdən...

Sənə hədiyyə göndərmək üçün
bir tikə divar da,
bir tikə
yaş insan üzü də qismət olmadı mənə.
Əliboş gəldim yer üzünə,
əliboş da gedəcəyəm.

Divarlarda,
küçələrdə
günü-gündən əyilir kölgəmin beli.
Belə lazımdır,
bəlkə, belə.
Əzab lazımdır mənə
dəyirmana külək kimi...

Otağım var Moskvada.
İki qonşum var Moskvada.
İkisi də şikəst.
Otağımda
çarpayı,
masa,
televizor, divar saatı.
“Bəs sabah, görəsən, nə olacaq?”
Dayanıb
ölüm arzusuyla
ölüm qorxusunun arasında.

Avtomobil işıqları
divarlarda sürünür.
Gecdir.
Burada qış aylarında
güclə gəlir gecə.
Gecə gəlir,
sürüşür əlimdən...

**Yeddinci**

.      .      .      .      .      .      .      .      .

.      .      .      .      .      .      .      .      .

.      .      .      .      .      .      .      .      .

.      .      .      .      .      .      .      .      .

*1964*

## ŞƏFFAF BALIQ

Taxta nişanlara atılarkən
bir gün
sinəmə gələcək güllə.
Ürəyimin infarktı
yolda ikən hələ
dənizə gəldim.
Evlərin, divarların,
rəngi solmuş qapıların
qoxusunu unutdum,
dənizə açılan kimi gözlərim.
Gözlədim.
Söndü gecələrimin
dəniz arzusuyla dolu tənhalığı,
arzularımın
enib-qalxan birjasında
dənizin valyuta bahalığı.
İçimə
dənizin qoxusu doldu.

Yox oldu
Bakı divarlarının
ilıq kölgələri,
Bakı koridorlarının
addımlarla dolu sirri...
Ayrıldım
açıq pəncərələrin
maqnitofon səsi xoşbaxtlığından,
yeni binaların
ev,
ocaq ola bilməyəcək axtalığından...
Dənizə toxunub,
qayaya dəymiş güllə kimi
kənara sıçradı
günlərimin qurğuşun ağırlığı.

Addımladım
qayaların addım-addım,
ləpir-ləpir
kələ-kötürlüyündə.
Torpağın,
dənizin,
qupquru qayaların,
bir də insan ömrünün
anlamadığım birliyində.
İçimdə
nəyinsə ölüm-dirim davası,
çölümdə – Xəzər –
– Aram ölümün nəhəng epopeyası...
Torpağın
dəniz dolu ovcuna endim.
Suyla,
qayalarla,
balıqlara bələndim...

Göndərdiyin
yuxulara baxdım.
Çox sağ ol, kapitan.
Küləklə doldu ömrüm,
yelkən sayağı.
Üzüldü
yer üzündən
get-gəlimin ayağı...
Üzüqoylu yıxılıb
göndərdiyin gəminin
mavi göyərtəsinə
üzdüm.
Göndərdiyin dəniz böyük,
hər ləpəsi
bir insan ömrü.
Ləpələrin paradı
axır dayanmadan.
Amma sahil yox...
Kapitan, ayıq ol!
Dənizin dibi qayıqlarla dolur!
Onlara toxunsaq,
Batacaq gəmin, kapitan!

Səkilərin tozuna enəcəyik.
Evlər sovuracaq
bizi içinə,
otaqlara ilişəcəyik, kapitan!
Meyitimi tapmayacaqlar...
Qalxacaq göy üzünə
ömrümün
nazik sapa bağlı çərpələngi.
Kəsiləcək sap.
Ulduz kimi axacağam
Yer üzünə,
kapitan,
nəyinsə son nəfəsi olacaq, bəlkə,
ölümümün ulduz axını...

Kapitan, ayıq ol,
ayıq ol, kapitan!
Qapanmasın
gözlərin bir an.
Allah
insan ağzıyla deyir:
– Yoxam...
Eşidirsənmi, kapitan!!!
Amma burda da dəniz.
Xəzər.
Suyun içinə açıram gözlərimi.
Səni görürəm
aramızda dayanan
şəffaf
    balığın
        içindən...
Azacıq sərxoş,
yalqız gecələrdə
səslənən blyuztək
oxşayırdı dənizi
suda sınan bədənin
qadınlıq,
analıq məntiqi.

Üzə-üzə
dayandıq üz-üzə.
Bir-iki xoş söz arzusuyla
atılmışdıq dənizə.
Lakin
nə sən dinə bildin,
nə mən,
ətraf dəniz...
Ayrılıq qəflətən
gələ bilərdi.
Bircə insan səsindən
bizi silə bilərdi
öz dilimizlə,
ölümümüzlə.
Bilirdin,
bilirdim
yox olduq,
biryolluq
üzüb getsə şəffaf balıq.
Balıq olmalıydı,
balıq qalmalıydı,
biz olmaqçın,
biz qalmaqçın.

Qayalar suda qara,
qaranlıqdan işığa,
keçə biləcəyimin
ümidsizliyi
boğurdu məni.
Yeganə ümidim sən,
sən də balıq içindən...
Bəlkəsizlik
səsləndi yenə,
qarışdı dənizin yaşılına,
dəniz içi qayaların qarasına.
Dərdim yayıldı dənizə,
qalxdı üzə
ada-ada.
Balığa dedim dərdimi
ürəyimin jarqonunda...
Anlamadı.
Şəffaf bədən,
Şəffaf beyin,
Şəffaf ürək,
Şəffaf dünya,
taleyimizin şəffaflığı
Şəffaf balıq...

Dənizin içində də,
balığın içindən də
keçirdi vaxt.
Yavaş-yavaş
sürünürdü dənizə
qaranlığı göy üzünün.
Qaranlıqla dolub
bir az da
ağırlaşdı dəniz.
Gecəylə dolurdu gözlərimiz.
Ancaq qarpız qabıqları,
əzik siqaret qutuları
qalacaqdı bir azdan.
Bir azdan
yeganə ümidim
gecəyə qarışıb qaralacaqdı.
Gecəyə ilişib,
qaranlıqda qalacaqdı
sənə deyəcəyim sözlər.
Necə deyəydim?
Dənizdə
bir insan sözü
bir insan ömrünə bərabər.

Razıydım ölümə,
sənin ölümünü istəmirdim, ümidim.
Mənə
qismət olmayacaqdı
gözlərini qapamaq da.
Nəhəng,
dəmir darvazatək
Şəffaf balıq
dayanmışdı aramızda.

Sən.
Balıq.
Mən.
Vaxt gec,
dəniz gecə.
Yox olduq
gecəyə atılmış
iki xırda gecə kimi.
Əlimi
uzatdım irəli.
Üzdü balıq.
Balığın yerində
qoca hindli gözləritək
qəmli qaranlıq.

Sahilə döndüm.
Döydüm
sahilin
torpaqla cəftələnmiş qapısını.
Çox döydüm,
çox döydüm,
çox.
Açdılar qapını.
Uzatdım asılğıya
bir insan ömrünün ahını.
Aldım
ciyərlərimi,
qollarımı,
ayaqlarımı,
qalan günlərimin saatlarını.
İnsanımı geydim.
Yeridim qayalara sarı.
Sonra sola.
Asfalt yola.
İrəli.
Abbasın dükanından o yana,
avtobus stansiyasına...

*1965*

## ATAMIN MƏKTUBLARINA CAVAB...

Həmişə bir yana, bir yerə gedəndə
məktub göndərərdin.
Londondan, Berlindən,
Vroslavdan, Pekindən.
Nə bilim,
dünyanın min yerindən
məktubların gələrdi qapımıza.
Zərflərə yapışdırdığın
neçə ölkənin
neçə rəsmli markalarından
duyardıq əlinin istisini,
toxunardı üzümüzə
cavan ölmüş Məhbub nənəmin
Salahlıdan dünyaya getmiş
qarayanız oğlunun nəfəsi...
Bir an da
unutmazdın bizi.

Vaxtın az olanda,
azacıq azanda
dünyanın min fikrə, min ümidə
dönən
dolaşıq yollarında,
məktuba macal tapmayıb,
teleqramlar göndərərdin.
Nə deyim,
dünyada göz yaşı olmasa,
ən səmimi gülüş,
ən xoşbəxt təbəssüm
bir qəpiyə dəyməz!
O vaxt
oxuyan kimi
kənara atardıq yazdığın
məktubları.

Amma indi...
Üst-üstə düzülüb səliqəylə
bir taxta qutunun içində.
Yusifin ürək ağrısı,
Aybənizin kədəri,
Anamın göz yaşları,
Nəvələrinin
səni soruşmağı,
mənim bir söz deməyib,
otaqları gəzməyim...

Məktub yazardın
olduğun yerlərdən,
hər çıxdığın səfərdən.
Amma bu səfər...
Bəlkə, indi də yazırsan...
Ancaq
Dünyanı, insanları, vətənini
sənin qədər sevən bir adamın
məktublarını
gətirərmi həyata
ölümün qara çaparı?
Qoyarmı
bir də dəysin üzümüzə
qələminin təmiz havası?

Yox!
Yer kürəsi fırlanır
əvvəlki qaydasıyla.
Ölüm dost-aşna
tapır özünə hələ.
Bilirsənmi,
sən gedəndən sonra
neçə silah,
neçə dövlət,
neçə yalan keçirdib ələ?
Tək insanı,
bir də təbiəti
heç etmək üçün yox!
İndi ölüm
hara gəldi
soxur başını.
Dünyanın bir yanı sönən kimi,
od vurur başqa tərəfinə.
Ya da tərsinə.
Azacıq
alovlanmağa başlayan kimi
azadlığın ocağı,
ölüm sıxıb çıxardır
ədalətin suyunu,
axıdır onu yer üzünə.

Söndürür
yenicə doğulmuş işığı...
Ata,
dünyada hələ
ölümün müttəfiqləri,
dostları var.
Sən ki görmüşdün onları,
onlarla vuruşanları!
Sən ki görmüşdün
qəzəbindən
dümağ olmuş zənciləri.
Sən ki neçə dildə eşitmişdin
Azadlıq sözünü.
Sən ki seçə bilirdin
dünyanın əyrisini, düzünü.
Sən ki oxumuşdun,
ümidin göz yaşını,
dəsmal kimi silməkçün
yazılmış şeirləri.
Sən ki
dünyanın neçə pəncərəsindən
görmüşdün səhəri...

Həmişə bir yana gedəndə
məktub göndərərdin.
Londondan, Berlindən,
Vroslavdan, Pekindən,
nə bilim,
dünyanın min yerindən.
Məktub yazardın
olduğun hər şəhərdən,
hər çıxdığın səfərdən.
Amma bu dəfə...
Bu gecə
bir də oxudum məktublarını.
Qələmin möhkəm,
dilin duzlu,
ürəyin nigarançılıqla dolu.
Yox,
narahat qalma bizdən.
Güzəranımız yaxşı,
evimiz abad.

Səndən qalan nə varsa –
ümidlər,
insanlara inam,
dosta sədaqət,
hər vergülünün, nöqtəsinin
keşiyində dayandığın
ana dilimiz.
Bu var-dövlət
çatar bizə də,
nəvələrinə də,
onlardan sonra gələnlərə də.
Arxayın ol, hər şeydən!
Tükənmir barı
qarış-qarış gəzdiyin
torpaqların.
Yenə başı dümağdır
sevdiyin dağların.
İnan mənə.
Çünki tez-tez
gedirəm Bakıdan,
gəzib dolanıram
sən olduğun yerləri.

Evimizə qayıdıram yenə.
Həmişə yola salıb,
qarşılayırsan məni...
Hər dəfə
görürəm heykəlini.
Məni ayırmırsan
ətrafında dolanan insanlardan.
Bakıya baxıb,
vətənin səsinə qulaq asırsan...
Yanından keçənlər
ayaq saxlayıb bir an,
baxırlar sənə,
Səməd Vurğuna.
Mən də baxıram.
Baxıram
cavan ölmüş Məhbub nənəmin
Salahlıdan gedib,
heykəl olmuş
qarayanız oğluna...

*1967*

## BÜDRƏMƏLƏR

Sağ çiynim Qərbə dəyir,
büdrəyirəm,
sol çiynim Şərqə dəyir,
büdrəyirəm,
sağ əlimdən Şimal çıxır,
büdrəyirəm,
sol əlimdən Cənub çıxır,
büdrəyirəm...
Büdrəyirəm başım göylərə dəyəndə,
büdrəyirəm yerin yükü belimi əyəndə,
yıxılıram, yıxılıram,
dörd tərəfdən sıxılıram,
yerdən, göydən sıxılıram...

Dünyaya yağış yağır,
buludlar baxır dünyaya,
dünyaya baxış yağır,
gilə-gilə yağış yağır,
gilə-gilə baxış yağır,
bəlkə, sevinc,
bəlkə, qara qarğış yağır?..

Yağış suyundan
əcaib xəritələr çəkilir
pəncərənin şüşəsində.
Böyüyür, kiçilir qitələr,
qitələrdə yamyaş ölkələr,
bir damla kənd, bir damcı şəhər.
Qurumur pəncərə şüşəsinin gözü,
qurtarmır nəm sözü,
yağışsa yağır, yağır,
gecə, səhər, gecə, səhər,
sənsə bağır, bağır,
gecə, səhər, gecə, səhər...
Nə olub mənə?
Birtəhərəm, birtəhərəm, birtəhər...

Uludan da ulu babam,
mənə namə yazan babam,
Qobustanda qayaları cızan babam,
yaxşı-yaxşı yadına sal,
qayalarda xəyala dal,
utanma, çəkinmə,
nədən, kimdən utanırsan?
Sümüklər danışıb gülə bilmədikləri kimi,
utanıb qızara da bilmirlər!

Yadına sal o yağışı...
Yadındamı, leysan yağış yağırdı
o səhər? Yadına sal
yağışdan mağaraya qaçdığını,
sinəni zülmətə açdığını...
Mağara səni yağışdan qurtardı,
ancaq qorxunu bir az da artırdı.
O gündən sonra,
qaçdınsa, getdinsə hara,
yadına düşdü,
çağırdı səni o mağara.
Sən olanda Allah hələ yox idi,
qaraltılar, təhlükələr çox idi.
Nədir, nədir,
dünya nədir bilmirdin,
gedir, gedir,
kimdən, nədən gedir bilmirdin.
Kimin, kimin nəyinə gərəkdir
sənin harada yaşadığın?
Ancaq
sənin kimilərlə doluydu
solun, sağın.

Bölməyə başladız
dağların içini,
dağların içində
ölməyə başladız.
Bir gün də yer üstə
öldürdülər səni.
Mağara kəfənin,
dağ məzarın oldu,
uludan da ulu babam,
uçan evim, sönən sobam!
İndi Allah var,
indi üzümü ona tutub,
ondan rəhmət diləyirəm sənə...
Xoşbəxt adam idin, inan mənə.
Yadıma düşürsən hər gecə
əlimdən yerə düşəndə oxunmuş qəzetlər,
mağarada, zülmətdə
hələ də tökülən qanlardan xəbərlər.
Qızara bilmir sümüklər,
bəxtəvərsən, bəxtəvər...

Qapılar, qapılar...
Qapılarınız axşam üstü,
isti yay günündə döyülərkən,
ürəkləriniz də
döyünürdü hələ.
Hələ ümidə keçirilmişdi
ürəklərin cəftəsi.
Sonra
cəftə qarışıq,
ümid qarışıq
çıxdı yerindən ürəkləriniz.
Günahkarsa biz olduq, biz.
İndi qapılarınızdan düşmüş
qıfılların, kilidlərin, açarların üstüylə
gedirik ömrün sonuna.
Girdiyimiz otaqların içindən keçib
gedirik sona.
Nədənsə utana-utana...
Nədən utanırlar
analarımız, bacılarımız, arvadlarımız?
Axı bir gün
Dünyanın da qapısından düşəcək açar,
Dünyanın da qapısı çıxacaq cəftəsindən!
Taybatay açılacaq Dünya pəncərəsi.
Lüt, çılpaq qalacaq, görünəcək Dünya!

Saçları bir-birinə dolaşmış
çılpaq lüt Dünyanı görəcəyik.
Qız qarımış bu Dünyanı!
Bizim günəşimiz yox, iraq,
Allahın səhəri açılan gün...

Bizim günəş doğdu,
açıldı bizim səhər.
Açdım gözlərimi,
salam yuvam, salam azadlığım, Otaq,
salam qandalım, salam məhbəsim, Otaq!
Divarların möhkəm,
daşların əlbir,
ömrün uzundur.
Dünyada divarlar yaşayır,
Dünya daşlar dünyasıdır,
sevincimiz daş sevinci,
kədərimiz divar yasıdır,
bunu bilirsən, Otaq...
Əbədi yaşayanlar,
əbədi sakinlər, əbədi əhali.
Onlara nə dil gərəkdir,
nə ağıl.

Əbədi ömürdə
ünsiyyət gərək deyil,
onunçün susurlar daşlar.
Bilirsən bunu, Otaq...
Bilirsən beşgünlüyümüzü,
bilirsən gedəcəyimizi.
Divarlarının rəngləriylə,
üstünə mıxlanmış fotoların gözləriylə
baxırsan, görürsən bizi.
İçində ora-bura sürürsən bizi,
yuxudan ayıqlığa,
ayıqlıqdan yuxuya verirsən bizi.
Küçəyə atırsan bizi,
bəzən ikiəlli tutursan bizi.
Fəqət bəzən
ya bir quş səsi,
ya Moskvaya getmək arzusu
ayırır bizi səndən.
Onda da özün sərxoş,
ayıq, qürbət şəhərdə
qəflətən yada düşür vətən...
Vətən deyib, yenə,
yenə dönürük dörd divarın içinə.

Bunu bilirsən.
Bilirsən.
Sən
müdrik, müdriksən...

Tarıma çəkilib təbiət,
zildən də yuxarıdır meşənin səsi,
amma qorxma, sınmaz nəfəsi...
İndi torpaq dırnaqla vurulan qaval
kökə gəlib, kökdədir maral.
Gözlər qıpqırmızı,
durmadan titrəyir burun,
burnunun aralanmış pərələri.
İndi maral oxudur yamacları, dərələri,
zirvələrə hay verir maral,
zirvələrə pay verir maral,
tay olub zirvələrə maral.
Sinəsinə məhəbbət dolub,
gözlərində rənglər solub,
qulaqları bütün səslərə tutulub.
Bircə səsdən savayı.
Maral bir səs eşidir:
"Əbədi, qorxulu, əziz..."

Addımlayır
dişi marala sarı
iy-iy, iz-iz...
Buynuzlar şaha qalxıb,
Maral gedir,
göy üzünü buynuzlarına taxıb.
Ancaq onu
başqa maral öldürəcək, bəlkə.
Qarşılayacaq, yolunu kəsəcək, bəlkə,
başqa buğanın şaxələnmiş buynuzları.
Cəhənnəmə ki!
Ona sarı, ona sarı,
yalnız, yalnız ona sarı...
Bəlkə, məğlub ölkə bayrağıtək
cırılacaq, parça-parça olacaq
onun baharla dolmuş sinəsi,
bəlkə, əbədi kəsiləcək boğuq səsi,
savaşda qaralacaq nəfəsi...
Cəhənnəmə ki!
Maral gedir,
gedir inamla
onun,
onun,
onun səsinə...

Böyüyür ağac kölgələri,
günəş var göy üzündə
həmişəkindən böyük,
həmişəkindən qat-qat isti!
İşıqlanır
ağacın
maral buynuzlarıyla didilmiş,
cırmaqlanmış gövdəsi,
və oxunur
ölümə gedən Maralın
son məktubu kimi...
İrəlidə ya Məhəbbət,
ya Ölüm.
İrəlidə ya O,
ya Bu.
İrəlidə Həyat.
Yaşayıb ölməyə gedir Maral,
ölüb yaşamağa gedir Maral!
Kökə gəlib təbiət.
Ayağa qalx,
Allah himn oxuyur,
ölənəcən ayaq üstə qal!..

Dağıdardılar, qırardılar budaq-budaq,
soyardılar, dərərdilər yarpaq-yarpaq
bir-birini ağaclar,
sularda batardılar ağaclar...
Ancaq kökləri dərin, möhkəm,
torpaq güclüdən güclü.
Bir ağac da sağ ikən
dəyişə bilmir yerini...
Odur,
qorxusuz gəzərlər
laqeyd ağacların arasında
sarılıqları boza çalan,
can verib, can alan
Canavarlar...
Ətraf
insan girməyən cəngəllik,
insan yoran məsafə.
Qarşıdasa
ağacların arasından
süzülən qoxu.
Canavar yuxusu,
Maral qoxusu,
Maral qorxusu...

Və hər yanda
müttəfiq ağaclar.
Kollar, izlər, başqa ağaclar...
Qan axar qarın üstünə,
axar qarın ağına,
yumşağına hopana qədər.
Qar qan çəkər pambıq kimi...
O başdan don vurar,
donar qara hopmuş qan.
Bir-bir,
sürətlə
keçərlər Canavarlar
insan yolundan.
Beşi əlli adamı
dövrəyə ala bilər!
Ancaq həmişə
uzaq gəzib dolanarlar bizdən.
Qorxudan yox, yaşamaq üçün...
Günəş batandan,
meşə qaranlıqla dolandan,
gecə çökəndən sonra
baş-başa, burun-buruna
yatarlar Canavarlar.

Yatarlar
eşikdə quyruq,
bayırda qulaq qoymayıb...
Oyadar onları
səksəkəli yuxudan
uzaqdan ötən qatarın səsi.
Yayılar aləmə
nəyinsə himni kimi
Canavarlar ulaşması.
Xışıldayar yarpaqlar,
qımıldanmaz ağaclar.
Göy üzünə ay çıxar,
göy üzündən ay baxar.
Sabah,
Allah qoysa,
yaşamağa bir gün də var...

Küçə gedir, küçə dönür,
hər gün, hər gün
gözlərimə küçə, küçə görünür...
Sən
müdrik, müdriksən!

İnsan,
maşın,
it-pişik səslərinin vəhdəti,
vitrindəki alyanaq manekenlərin
qıpqırmızı təbəssümləri,
pəncərələrinin tozu,
divarlarının qarası, sarısı, ağı, bozu,
səkilərinin mini, yüzü,
içindəki insanların milyon üzü,
kütlənin simasızlığı, şəxsiyyət qəbiristanlığı,
sənin qüvvən iradən, canındır, Küçə!
Əhsən!
Sən müdrik, müdriksən...
Maşınların sürətini, adamların özlüyünü
alırsan əllərindən bir anda,
o yanda, bu yanda...
Maşın tormozlarının ətkəsən səsi,
üzüqoylu üstünə yıxılan sərxoşlar,
gecənin nəhəng kölgəsinə çıxan fahişələr
sənin yüngül məzəndir.
Küçə,
sənin üstündən keçmədən
nə doğula bilir,
nə ölə bilir insan oğlu insan!

Köksün üstə atılmış
əzik siqaret qutuları,
onların üstündən sürünən kölgələr,
insan kölgələrinin kimsəsizliyi
sənin əqidən,
sənin fəlsəfəndir, Küçə...
Səndən taksiyə minərkən
açılıb görünən qadın ayağı da,
tramvay relslərinin paraleli də
yenilməz məntiqindir.
Özümə hər gün, hər gün
eşitdirdiyin
addımlarımın səsiylə:
– Öləcəksən, öləcəksən!
– deyirsən.
Sən
müdrik, müdriksən...

Kefinin ən saz çağlarında
əsgər addımlarına qarışan
marş sədaları,
yersiz yağışdan islanıb,
bir anda adi əsgitək sallanan bayraqlar,
gecədən ütülənmiş şalvarlar,
rəngli şarlar
üstünlə axar, axar, axar,
pəncərələr tanklara,
tanklar pəncərələrə açılar, baxar.
Sonra
ağlını itirmiş
bir sərxoşun
yalqız nəğməsini
pişiklərdən savayı
kimsə eşitməz.
İşini bilənsən, Küçə!
Sən
müdrik, müdriksən...

Sən müdrik, müdriksən, Qadın!
Bir gün yer üzünün
yeganə sakinləri
köhnə qəzetlər olsa,
dünya
qaçqın evitək
boşluqla dolsa,
olumla ölüm arasındakı
yollar açılıb,
hər küçə, hər dalan
ölümə burulsa,
sən həmişə özlüyündə yaşayacaq,
özlüyündə qalacaqsan.
Beş-on salamat qalmış
divarların birindən
aləmə baxacaq
mavi, ala, qara gözlərin,
təbəssümünün öpüşdüyü,
çılpaq ayaqlarının
boş dünyada
mənasız olmuş konturu.

Nə bir şüşə konyak,
nə vaqonlarının ikiyerli kupesi,
nə sönmək üçün işıq,
nə də erkək qalacaq, Qadın.
Sən
müdrik, müdriksən!
Ancaq yer üzündə
alçaq kreslolar, küləkli küçələr,
dar liftlərdə
insanın insana yaxınlığı,
pəncərə işıqlarıyla
deşik-deşik olmuş gecələr
hələ var ikən
sən həm mərdə,
həm namərdə,
şaha da, nökərə də,
nadana da, dahiyə də,
yeganə ümid,
erkək ömrünün yeganə mənasısan.
Bunu bilirsən sən,
müdrik, müdriksən, Qadın!

Sən dayandığın
hər bir yer çarpayı,
oturduğun hər yer
açılmamış yorğan-döşəkdir.
Sənin təbəssümün
qatil cibindən bıçaq çıxarar,
başlanar müharibə
bircə gülüşündən.
Təpədən-dırnağa qədər
günahlarla dolusan, Qadın,
amma bağışlanır
bütün günahların
bətnindən çıxan körpənin
ilk səsiylə.
Qadın – günah,
Ana – Allahdır.
Bunu bilirsən.
Sənin varlığın
dünyanın sevinci,
Allahın qüvvəsidir.
Əllərim əsir...
Sən
müdrik, müdriksən!

Gecədir...
Evimə arzuların
gələcəyindən qorxuram,
qorxuram ümidlər dolar otağıma.
Pəncərələrimin ikisi də bağlı,
köhnə şeirlərimə baxıram.
Küçədə
gündüzə çalan
fanarlar yanır,
küçədə kimsə insan səadətinə inanır.
Görəsən, neçə il, neçə gün yaşayacağam?
Arvadım, uşağım, kitabım olacaqmı?
Məndən sonra bu dünyada
bircə şeirim qalacaqmı?
Gecədir...
Əllərim əsir...
İçimdə ölüm həsrəti oyanır,
amma yenə
ölümlə arama girib,
qarşımda sənin bədəninin
çılpaq iradəsi dayanır...
Sən
müdrik, müdriksən...

Gecədir.
Vaxta qulaq as.
Allaha qulaq as!
İşıqların qapısı bağlı,
qaranlıqlar pəncərəsiz.
Allah
dünyanı bağlayıb
gedən gündən
bir dəfə də çalınmayıb
qapımızın zəngi.
Gəlsə də, kim gələcək?
Rastına çıxan hər insanla
ümidlər çıxır əlimizdən əlcək-əlcək...
Vaxtı eşit,
Allahı eşit...

Buludlar gəlir üstümə,
göy üzü bağırır yuxarıdan:
"Əllər yuxarı!"
Yanır ayaqlarımın altı,
aşağıdan qışqırır torpaq:
"Əllər yuxarı!"

Ötən günlər arxadan,
gələn günlər irəlidən
çığırırlar əlbir olub:
“Əllər yuxarı!”
Ömür olub təngnəfəs,
yorulmuşam
hər gün bu gündə gizlənməkdən...
Bilirəm,
bir gün bezib, təngə gəlib,
çıxacağam
gizləndiyim bu günün
zülmət qaranlığından,
çıxacağam
yuxarı qaldırıb əllərimi.
Və bağıracağam sinə dolusu:
– Təslimən, İlahi!..

*1967*

## KÖÇƏRİ QUŞLAR

Yığış!
Yığış!
Yubanma, qurban olum!
Bu payızın
qəflət yağışına kimi
getməliyik!
Bax o külək
birdəfəlik
Zevin küçəsinə dönən kimi
Göy üzünə yetməliyik.
Qorxma,
qorxma,
qanadlarımız o an
qüvvətlə dolacaq.
Düşəcək yadımıza
canavarların,
pələnglərin,
durnaların,
ata-babalarımızın təcrübəsi.
Göy üzündə
tutub saxlaya bilməyəcəklər bizi!

Yığış!
Yığış!
Yubanma, qurban olum!
Qoy Bakıda qalsın
bu köynəklər,
cib saatı,
vətən həsrəti.
Gedə bilməsək,
bəlkə, könlümə yatacaq
bir gün,
adi günlərin adi cəsarəti...
Yox,
onda sənsiz gedəcəyəm,
cənuba gedən
"Ulduzlara qoşulub"...
Yığış!
Yığış!
Niyə yubanırsan?
Başa düş məni,
nə böhtandan qorxum var,
nə ləkələrdən.
Bilirsənmi,
orden kimi gəzdirərdim sinəmdə
böhtanları,
ləkələri.

Ulduzlarla dolu
Göy üzünü
paqon kimi daşıyardım çiynimdə.
Ancaq bu şəhərdə
onun-bunun iradəsiylə
basılmamış qapımızın zəngi,
başqa ayaqların sürətindən
asılı olmamışkən addımlarımız,
Göy üzünə çatmalıyıq biz.
Yığış!
Doldurma çantaları.
Vaxt az,
ömür, bəlkə, yarı.
Kim bilir,
bəlkə, tez dönəcəyik
qapımızın bağlısına sarı?
Yığış!
Yığış!
İnsan kinindən zəif,
insan kinindən ləngdir
köçəri quşların qanadları.
Tələs,
tələs!

Doldurma çantaları!
Qoy Bakıda qalsın
bu köynəklər,
cib saatı,
vətən həsrəti...
Tələs!
Tələs!
Üfüqdən üfüqə kimi
aydın görəcəyik solu-sağı,
cəmlənəndə
dünyanın varı,
bir yol üstə,
bir gün
unudulacaq Xəzər –
– Sovet İttifaqının
dəniz suları...
Ömrümüzü
saxlayacağıq birtəhər.
Bükəcəyik ömrümüzü
sağ qalmağın kağızıyla.

Bilirsənmi,
unudulacaq evlərimiz,
teatr, metro,
Moskva, Luvr,
filmlərin cənnəti,
amma
yadımıza düşəcək hər gecə
Konservatoriya komendantının
kiçik, isti kabineti...
Yığış!
Yığış!
Yubanma, qurban olum!
Bu payızın
qəflət yağışına kimi
getməliyik.
Qoy Bakıda qalsın
səmaya yayılan, səsimizi
boğmayacaq
bəyaz buludların azadlığı.
Yığış!
Yığış!
Yubanma, qurban olum!

Ömrümüzün qapısına
qulaqlar dirənib.
Bir gün açılacaq qapı.
Onda...
Tez ol,
tələs,
tez ol...
Bilirəm,
başa düşürəm,
iki gün qaldığın yuva da
doğma olur
ayrılıq günü,
talan olsa da.
Başa düşürəm səni.
Amma
Yolumuz da
asan deyil!
Bəlkə, bir ay uçacağıq,
bəlkə, min il!
Bizdən xəbərsiz olacaq
başa düşülməmiş Allah...
Nə var?
Dözməli olacağıq
başımıza gələn min oyuna!

Bəlkə, heç
çata da bilməyəcəyik
ümidlərin cənubuna...
Yığış...
Yığış.
Yığış!
Yubanma, qurban olum!
Bu payızın
qəflət yağışına kimi
getməliyik.
Göyə çatmaq üçün
saatlarda
beş-on səbir qalır!
Çata bilmərik!
Qapıların
nifrətlə dolu arxası,
pərdələrin arası
bizi indi yola salır.
Yığış!
Yığış!
Bir azdan iş günü
başlayacaq həyatda.

Bir yerdə
tər tökəcəklər yer üzünə
Atlar və insanlar.
Biz isə
bəyaz buludlara gedirik
iş yerindən icazə almamış.
Yığış!
Yığış!
Bayaq zəngi basıb,
qəzet gətirdilər.
İkinci dəfə
bəxtimiz belə gətirməyəcək!
İkiyə bölünəcək
indimiz və gələcək.
Arada isə
əllərimiz
ictimai divarlara dəyəcək.
Bilirsənmi,
onda
ya “nahaq uçmadıq”,
ya da “nahaq uçmaq istədik”,
deyəcəyik biz.
Və o gündən
Zuğulba təpələrinə çıxanlara
bizsiz açılacaq dəniz...

Özgə qayaları
kəsəcək ayaqlarımızı...
Hər otağın öz qanunu,
öz məntiqi var.
Bu otaqların qanunu
mən yox,
doğulmağım və sağ qalmağım pozur.
Mən adi qapı sevirəm.
Üzümə
bağlıdır
məntiqlə açılıb-örtülən qapılar.
Döyə də bilmərəm onları...
Yığış!
Yığış!
Yubanma, qurban olum!
Bu payızın
qəflət yağışına kimi
getməliyik.
Bu külək
birdəfəlik
Zevin küçəsinə[1] dönən kimi
Göy üzünə yetməliyik.

---

1 Zevin küç. indiki Əziz Əliyev küçəsidir.

At o köynəkləri!
Eşit,
ömründə, heç olmasa, bir dəfə də eşit
köçəri quşların
bizi çağıran səsini!
Yadına sal canavarları,
pələngləri,
durnaları.
Unutma
ata-babalarımızın təcrübəsini.
Yığış,
yığış,
nə olub axı...
Tələs...
Yığış...
Axı yağış...
Başa düş...
Yox...
Yığış...
Axı yağış...
Yağış...
Niyə?...

*1968*

## ROBİN QUD

*Vaqulya, dənizsiz ölkə – yuxu görməyən insan kimidir...*

Anar

Bir kişi də ağıllı demədi ona
ağlı başında olanda.
Bir ağızdan dəli dedilər,
ağlı başından çıxan anda.
Dedilər
əvvəlcə qorxa-qorxa,
sonra
sakit olduğunu görüb,
dedilər gülə-gülə,
axırda da elə-belə...
Dedilər
Tiflisə gedəndə
şirin Loqidze suyu içdikləri kimi,
Selpoya girmək üçün
poçt yolundan keçdikləri kimi.
Topala dəli Topal dedilər,
kişi dəli olduğu gündən.
O gündən
dəli qaldı yazığın adı.

Bir arvadı dörd övladı...
Arvad doğmadı daha
uşaqlarına
dəli balası deyərlər deyə.
Tez-tez qaçdı
bacısı evinə,
kolxozu, Topalı, bir də
taleyini söyə-söyə.
Uşaqlar da böyüyüb
çatdılar bir gün
elin dözülməz sözünə.
Çatan kimi
üçü Bakıya qaçdı,
biri özünə.
O gündən Topalın oldu
onun-bunun həyəti.
Başlandı radiosuz,
klubsuz kənddə dəli həyatı.
Yer üzündə ən dəhşətli şeydir,
Azəri kəndində dəli olmaq...
Nədən dəli olmuşdu Topal?
Bilmirdi heç kim.
Rayon mərkəzində də
"Allah bilir...",
demişdi həkim...

Günlər keçdi,
illər keçdi,
Tiflis yoluyla maşınlar keçdi,
dəyişdi dörd kolxoz sədri.
Çindən gətirilmiş
feyxoa ağacları da
əkildi kolxoz bağında.
(Bar vermədilər ancaq.)
“Yeməli” bir klub da tikildi
idarənin qabağında.
Kənd dəyişdi ev-ev,
işıq-işıq, şalvar-şalvar,
adam-adam.
Bircə nə özü,
nə adı dəyişdi dəli Topalın.
Hər doğulub yaşamağa başlayan
təzədən görürdü onu.
Odur ki gəlmədi
dəli Topal haqqında
gedən söhbətlərin sonu.
İldə bir-iki uşaq
mütləq bilmək istəyəcəkdi
Topalın kim olduğunu.

Nə cavab verəydilər
atalar,
əmilər,
analar uşaqlara?
– Başına hava gəlib davada.
– Yıxılıb at belindən.
– Atası da bu sayaq idi.
– Gör nə günə qoydu əsilli adamları
bu hökumət!
Min söz,
min cavab ,
min hekayət...
Topalsa dolanırdı
kəndin küçələrində.
Çayı müftə,
çörəyi quru olsa da həmişə.
Vaxtında gəlib çıxarlardı
söz tapılmayan
söhbətlərə...
Rahatca yaşayacaqdı
yer üzündə dəli Topal,
bir gün kəndə
kino gəlməsəydi.

Amma gətirdilər
ağ qutuların içində
saatyarımlıq
rəngli bir əhvalatı.
Kinoya getdi müsəlman camaatı...
Neçə yüz insan bəbəyi gəzirdi
ekranda gəzən
adamların dalınca.
Sıx meşələr,
bəzəkli arabalar,
yaşmaqsız arvadlar.
Ardı-arası kəsilmədən
söz atardı kənd camaatı
ekran camaatına.
Bircə hörmətlə baxırdılar
Robin Qudun atına...
Vaxt keçdi,
qurtardı
rəngli, xoşbəxt film.
Robin Qud
qovuşdu axırda sevgilisinə.
Gülməli bir mahnı da oxudu
moltanı dilində.
Biraylıq
söz-söhbət verildi kəndə.

Dağılışdı camaat...
Amma o gün
çıxmadı klubdan
dəli Topal.
Gizləndi stulların arasında.
Sonra xeyli yoxladı
burunla, əllə
ekranın ağını.
Bir şey anlamayıb
uzandı yerdə...

Səhər döyə-döyə
çıxardırdı klub müdiri
stulların arasından Topalı.
Köməyinə gələnlər də oldu
qorxmuş müdirin. Çünki dişləyirdi
dəli Topal qabağına çıxanı.
Xalq tökülməsəydi,
parçalayardı
klubun müdirini.
Əllə, ayaqla,
bütün əsəbləriylə tutub,
buraxmaq istəmirdi yerini.

Çıxartdılar
beş-on nəfər
klubdan dəli Topalı
Birtəhər.
Ancaq...
– Yox, bu lap dəli olub!
– Muğayat olun uşaqlardan!
– Əvvəllər əməlli adam idi!

Dəlixanaya apardılar kişini
bir aydan sonra.
Əvvəlcə yüklədilər
gecə gedən qatara,
sonra bağlı,
pəncərəsiz bir maşına atdılar.
Bakını da görə bilmədi
dəli Topal
bağlı maşının içindən.
Görsəydi, bəlkə, yadına düşərdi
dəlilikdən əvvəl Bakıya gəlmək
arzusuyla yaşadığı.

Yadına düşərdi
Bakı üçün
yığdığı pulların sayı,
yeddilliyi qurtardığı haqda
aldığı kağızın yeri.
Yadına düşərdi toyu.
Toy günündə
atasının aparılmağı.
Soldatlar çıxıb gedəndən sonra
anasının ağlamağı.
Yadına düşərdi atasının ölümü haqda
kəndə gəlmiş
təsdiqsiz, görülməmiş xəbər.
Yadına düşərdi
baş ağrılarından sonra
beynindən çıxmayan səsin züyü.
Bu səsi başqalarından
hər gün, hər dəqiqə,
var gücüylə gizlətməyi.
İntiqam alacağı günlə
yaşadığı günlər də
düşərdi yadına, bəlkə,
görsəydi Bakını, dənizi...
Ancaq
bağlıydı hər tərəfi maşının.

Ancaq
pəncərəsiz qaranlıqda
keçirdi dəli Topal
bizim güllü-çiçəkli
prospektlərdən...
Amma
nə qaranlıqdan,
nə pəncərəsizlikdən qorxurdu Topal.
Bilirdi ki,
o bu qaranlıqdan çıxan kimi,
eşidəcək dostlarının səsini.
Nağara kimi səslədəcək yer üzünü
doğma atların nalları.
Meşədə bayram olacaq!
Bolluca ət,
tuluq-tuluq şərab.
Ocaq, ocaq
ocaqlar yanacaq!
Bilirdi ki,
bu qaranlıq
dünya boyda olsa da,
sadiq dostlar
yetirəcəklər özlərini Robin Quda!...

*1969*

## REKVİYEM

Bir tikə yer tapılmadı o gün vaxtın,
məsafənin, məkanın, zaman və baxtın
içində ki,
çağırıb səni ora açıq-açığına soruşsunlar:
– Dünyaya gəlmək istəyirsənmi?
Soruşan olmadı kim, nə, nə vaxt, harada,
hansı dənizin sahilində
olmaq istəyirsən?
Kişi, qadın, qaranquş, pələng, qartal,
üzüm, xurma, alma, ya portağal?
Daş, ağac, kol, türbə, küçə, araba təkəri,
qaya ətrafında dolanan kölgə,
ya açıq may səhəri?
Qoxu, dad, ya səs,
Qaranlıq, ya işıq?
Yerinə yetirildi qiyabi hökmün
anlamadığın dildə yazılmış
sətirləri.
Gözlərin açıldı ananın yumşaq
və ağ döşlərinə.

Xoşuna gəlmədi atanın bığlarından
və pencəyindən gələn
tütün qoxusunun acısı.
Sonra dəniz – ləpələri dünyada
hər şeydən qorxulu və əziz,
səsi həmişə öz səsi,
rəngi gah yaşıl, gah mavi,
bəzən azacıq sarı,
bəzən bütün rəngləri birdən...
Dənizin üstündə göy üzü, buludlar,
buludları qara, ağ, boz, bomboz,
rəngi göy üzü rəngi...
Göy üzündən sonra
"Bakı – Kislovodsk" qatarının
küləkli tamburunda açılmayan qapı.
İlk dəfə ölüm qorxusu.
Sonra tut ağacının
cadugər qarı əlinə bənzəyən
budağına dolaşmış ilan.
Gümüşü, parıltısı, misri qılınc,
görümü təptəzə.
İkinci dəfə ölüm qorxusu.

Sonra hər astanada, otaqda, küçədə, tamburda,
hər dəfə relslərin paralelindən keçəndə,
meşədə, orda-burda,
hər təzə insanla görüşəndə ölüm qorxusu.
Qorxuyla ümidin müttəfiqliyi.
Qorxuyla ümidin mühasirəsinə düşmüş ömür.
Və bütün bunların üstündə
Allah.
İndi hansı ayda dirilmək istəyərdin?
Diriləndə nə, kim, kiminlə,
hansı dənizin sahilində
olmaq istəyərdin?
Diriləndə
Dilcan dağlarının
dolama yolları olmaq
pis olmazdı…
Qırx üçüncü ildə
bir-birinin dalınca sürünən
təptəzə, ağır hərb maşınları
dağa gedən köçü basmasaydı…

Cəngəlliyin doğma, azacıq acı
qoxusunda,
tanış ağacların, səslərin,
ləpir izlərinin, sümüklərin
yanından keçib,
axşamüstü çaya yaxınlaşan
pələng olmaq pis olmazdı...
Gecə kirli yük gəmisinin boş göyərtəsi,
sonra yük vaqonu, köhnə at əti,
Tokioda əbədi heyvanxana olmasaydı...

Avqust ayının ortalarında,
Şüvəlanda,
hasardan bir-iki metr aralı,
yarpaqları üç yoğun barmaq,
kölgəsi həmişə isti,
meyvələri sarı və dadlı
əncir ağacı olmaq pis olmazdı...
1949-da, səhər erkən,
sınmayacağını bilə-bilə,
yanına gəlməsəydi
Heydər əmi...

Səhərin təmiz havasına,
dünyada ən dadlı dodaqların gülüşünə,
dənizin açığına getmək üçün
pilləkən olmaq pis olmazdı...
Səhərin təmiz havasında qəfil xəbər,
dünyanın ən dadlı dodaqlarında istehza,
dənizin açığında yad kreyserlər
olmasaydı...

İşıqları yanan kimi sönən
xırda stansiyaların,
yayda yaşılın, qışda ağın,
Serpuxovada dayanmayıb
Moskvaya çatan qatarın
səsi olmaq pis olmazdı...
Damından payız yağışı axan
yük vaqonlarında qatillərlə,
canilərlə bir yerə
atılmış şairlər olmasaydı...

Yuxaya bükülmüş pendirlə
göy soğanın,
bir də ağ, təmiz
bir stəkan şərabın
dadı olmaq pis olmazdı...
Yada düşməsəydi özgə çöllərinin,
şəhərlərinin,
kafelərinin həsrətxanasında...

Azadlıq olmaq pis olmazdı...
Sonradan
azadlığı boğmaq gərək olmasaydı...
Pis olmazdı, olmasaydı.

Yerinə yetirildi hökm.
Gəldin.

Düşdün ümidlə qorxunun mühasirəsinə.
Çıxdın.
Allah rəhmət eləsin sənə...

*1969*

## KÜLƏK

Gah yerinə keçir,
gah dəyir divara,
gah yeriylə divarın arasında qalır,
vurnuxur ora-bura
atılmış evin boz divarında
bağlanmamış pəncərə.
Ev adamları qatara minən kimi
başlandı külək.
Unuduldu işlər,
yox oldu məsuliyyət,
dayandı yer üzündə tramvaylar.
– Nə olub? Nə xəbər var?
– Şəhərə külək gəlir,
külək gəlir şəhərə!

Dəvələr boylanır
səhradan bizə tərəf,
xortumlarını qaldırıb
mat-mat dayanır fillər.

Bir anda solur
Alp dağlarındakı qırmızı,
yox,
qıpqırmızı güllər.
Otaqlara telefon,
telefonlara
insan səsləri dolur.
Var sürətiylə
gedir tənha maşın,
meydanlardan soxulur dar küçələrə.
Şəhərə külək gəlir,
külək gəlir şəhərə!

Bax,
indi alın-alına dayanıb insanlar.
Deyiləsi,
eşidiləsi min söz var!
Doğulan gündən
dolub sinəmiz.
İndi üz-üzə dayanmışıq biz.
Nəfəsimizi eşidirik,
səsimizi də eşitməli olacağıq!

Çıxır
dözümün yolundan
kin, həsrət, acıq.
Küçələr, evlər,
bütün dünya boyanır indi
əsəblərin, hisslərin rənginə.
İndi dünya səhnə yox,
səhnə arxasıdır.
Adla tanıyırıq hamını.
Bilirik divlərin
və Məlikməmmədin kim olduğunu.
Bilirik qrimsiz Simurq quşunun
necə div balasını ac qoyduğunu.
Vaxtdır,
bir azdan
ulduzlar yığılacaq səsimizə.
Əllərimiz, qanadlarımız,
güvəndiyimiz dekorlar
töküləcək dənizə,
oxunmuş qəzet parçalarıtək
səpələnəcəyik küçələrə.
Şəhərə külək gəlir,
külək gəlir şəhərə!

Bəlkə, bu külək
sovurub yer üzündən
yerin bir küncünə
atacaq bizi?
Bəlkə, bir məftilə
ilişəcəyik ikimiz
siz və mən?
Onda necə baxacaqsız gözlərimə?
Yadınıza düşəcəkmi sükut?
Musiqiyə qaçmaq olmayacaq.
Nəhayət, inanın mənə.
Söhbət nə ağıldan gedir,
nə işgüzarlıqdan.
Nə gedirsə, ömürdən gedir.
Yalan demək olar
sevilmək üçün,
yalan demək olar
sevinmək üçün.
Ancaq gün gəlir
yaddan çıxır mühitin
ən gözəl, ən ağıllı tələbləri.
Bilirsizmi
çətindir necə,
vətəndə vətən həsrətiylə yaşamaq?

Quşlar çırpınır
bağlı pəncərələrə...
Şəhərə külək gəlir,
külək gəlir şəhərə!

*1969*

## BUM-BUM

Bu dağın şimalından
Şərqinədək o dağın,
Böyük bir meşə vardı
Sinəsində torpağın.

Böyük ağacların
Kölgələri qorxulu,
Cəngəlliyində onun
İtərdi insan yolu.

Yer üzündə o meşə
Ən böyük meşə idi.
Gecələr o meşədən
Qorxu iyi gələrdi.

Pələngləri, qurdları
Dolanardı meşəni,
Güclü heyvan gücsüzə
Batırardı dişini.

Gün işığıyla birgə
Onlar başlardı işə.
Gülərdi, ağlayardı
Heyvan səsiylə meşə.

Fillər parovoz kimi,
Quşlar velosipedtək
Səslənərdilər gündüz
Qaranlıq düşənədək.

Meşənin heyvanları
Səhər ova gedərdi.
Ağaclar arasından
Heyvan heyvan güdərdi.

Pələng qovardı ceyran,
Maral qurddan qaçardı,
Qaçanların içində
Qovan da bəzən vardı.

Meşədə belə olub
Yaranan gündən meşə,
Qovulan, qovan olmaq
Çoxuna olub peşə.

Bax həmin bu meşədə
Gözəl göl sahilində
Oynayırdı dovşanlar
Sahilin nəm əlində.

Yerə-göyə sığmırdı
Dovşanların sevinci,

Şıltaqlıq edirdilər
Həm nadinci, həm dinci.

Tüklü, yumşaq top kimi
Atılardılar göyə.
Qaçardılar sahili
Ləpirlə döyə-döyə.

Altı qardaş idilər
O boz, yumşaq dovşanlar.
Bu meşədə hamıdan
Qorxaq idilər onlar.

Bəlkə, axşama kimi
Onlar şənlənəcəkdi,
Amma bir səs onları
Birdən özünə çəkdi!

“Bum bum!“ səsləndi nəsə
Gölün o sahilindən.
Titrətdi dovşanları
Ayağından, dilindən.

Qulaq verib tez səsə
Dovşanlar duruxdular.
Oyunu və sevinci
Unudub buraxdılar.

– Bu kim ola görəsən? –
Soruşdu kiçik dovşan.
– Adını “Bum-bum” dedi,
Cavab verdi o biri.

Dovşanlardan böyüyü
Çəkilib tez o yana,
Bu sözləri söylədi
O hıqqana-hıqqana:

– Bu Bum-bumda nəsə var,
Gəlin qaçaq, qardaşlar!
O bizi söyməyəcək,
O bizi döyməyəcək,
Sorğu-sualsız bizi
Bum-bum tutub, yeyəcək!

Yerlərindən sıçrayıb,
Başladılar qaçmağa,
Gözəl göl sahilindən
Sola, sonra qabağa.

Qalmırdı yer üzündə
Dovşanların izi də.
Tutammazdı onları
Yaşin[1] əmi özü də!

Qaçdılar, hey qaçdılar,
Dayanmayıb bir yerdə.
Qorxu mindi onları
Tez səyirdə-səyirdə.

---

1 Lev Yaşin məşhur sovet futbolçusu, qapıçısıdır.

Dovşanlar qaçan zaman
Onları tülkü gördü.
Yuvasından boylanıb,
Onlara belə dedi:

– Ay dovşanlar, dovşanlar,
Bərk ayaqda qaçanlar,
Kimdən qorxmusunuz siz,
Hara əkilirsiniz?

– Qaçırıq, gəlir çünki
Bum-bum, ay sarı tülkü!
Sən də tez çıx yuvadan,
Yubanma sən də bir an!

Dinləyib bu sözləri
Tülkü tez fikirləşdi
Və öz-özünə dedi:

– Boşboğaz olur bunlar,
Bu avara dovşanlar!
Biri-birindən qorxaq,
Biri-birindən axmaq!

Amma hər halda indi
Pis olmaz burdan qaçmaq!

Dovşanlara qoşulub,
Qaçdı sarı tülkü də.
Quyruğuyla kol-kosun
Tikanın didə-didə.

Qaçdılar, hey qaçdılar,
Altı dovşan, bir tülkü.
Ayaqdan etdi yüngül
Onları qorxu yükü.

Dayanmayıb qaçdılar
Bir-iki kilometr.
Tər tökdülər meşəyə
Hərəsi on üç litr.

Bir ağacın yanından
Bu qaçaqaç keçərkən,
Meymun gördü onları
Palma qozu içərkən.

Baxdı o qaçanlara
İki gözü bərələ.
Onun çevik əlindən
Dığırlandı qoz yerə.
Bağırdı meymun belə:

– Ay yuvanız dağılsın,
Gününüz qara olsun!
Qara olsun üzünüz,
Qorxutdunuz məni siz!
Bu boyda meşəmizi
Salmısınız haraya,
Başınızı itirib,
Qaçırsınız haraya?

Cəza verməkdən ötrü
Bu axmaq acıdilə,
Dovşanlara çevrilib
Tülkü danışdı belə:

– Deməyin Bum-bum haqda
Bir söz bu acıdilə,
Qoy Bum-bumun ağzında
Dönsün əzik mitilə!

Eşitməyib tülkünün
Bu paxıl sözlərini,
Meymuna çevirdilər
Dovşanlar üzlərini:

– Bu acıdili burax,
Gəl olan tərəfə bax,
Bum-bum gəlir buraya
Tez düş qaçaq, ay axmaq!

Dovşanların sözündən
Meymun çıxdı özündən.
Tez bağırdı meşəyə,
Yığdı qohum-dostunu.
Söyləyib əhvalatı
Qorxutdu onu-bunu.

Qaçanlara qoşulub,
Meymunlar səs-küy ilə
Qaçdılar, elə bil ki,
Uçurdular göy ilə.

Ağacların içiylə
Budaqdan budaqlara,
Oppanaraq qaçdılar
Meymunlar uzaqlara.

Artdı o an meşədə
Qorxu, qaçaqaç səsi.
Töyşüməyə başladı
Qaçanların nəfəsi.

Çirk bataqlıq içindən
Onları gördü qaban.
Tez öyrənib xəbəri
Oppandı bataqlıqdan.

Meşə qabanları da
Qaçanlara qoşuldu.
Qaçaqaçın sürüsü
Qabanlarla da doldu.

Qaçaqaçın sürüsü
Heyvan-heyvan dolduqca,
Qorxu da böyüyürdü
Heyvanlar qaça-qaça.

Meşə cəngəlliyindən
Canavarlar gəldilər,
Bu "qorxulu" xəbəri
Eşitdilər, bildilər.

Başladılar qaçmağa
Ulayaraq qorxudan,
Oyatdılar meşədə
Min heyvanı yuxudan.

Uzun qış yuxusundan
Ayıları oyatdı
"Bum-bum gəlir!" xəbəri.
Ayılar da qaçdılar
Əzərək çiçəkləri.

Qorxudan bir-birinə
Qarışırdı heyvanlar.
Kimin kim olduğunu
Unutmuşdular onlar.

Çıxmışdı yadlarından
Güclü-gücsüz savaşı.
Canavarlar qaçırdı
Marallarla yanaşı.

Pələng bu qaçaqaçda
Toxunurdu ceyrana.
Amma bir acı söz də
Deyə bilmədi ona.

Dovşan, tülkü, kərkədan,
Maral, qurdlar, meymunlar
Seçilmirdilər artıq
Bir-birindən heyvanlar.

Gördü onları şir də,
Meşənin güclü şahı.
Baxdı o qaçanlara
Yuxarıdan aşağı.

Şirə də danışdılar
Heyvanlar əhvalatı.
Şah diqqətlə izlədi
Əhvalatda hər faktı.

Yaman qorxdu, qorxdu şir,
Hamı qorxmuşdu axı.
Hamı qorxanda qorxur,
Yəqin, hamının şahı!

Amma acı qorxudan
Dəyişmədi sifəti.
Heyvanlara çevrilib
Güclü şir belə dedi:

– Deyirsiz Bum-bum gəlir,
Bum-bum gəlir, deməli...
Sizin şahınız bilir,
Hansınızsız yeməli,
Amma o gələn Bum-bum
Bilməyir bunu, bəlkə?
Odur ki indi mən də
Yeriyim cərgənizdə.
Bir məsələ var, ancaq
Yaraşmaz bizə qaçmaq!
Biz müvəqqəti gərək
İndi geri çəkilək.

Deyib bu sözlərini,
Çevrildi ağa-ağa,
Şahtək irəli keçib,
Başladı tez qaçmağa...

Heyvanlar arasında
Şaha inam yox oldu.
Qaçaraq şahla birgə
Qorxuları çoxaldı.

Meşəni bürümüşdü
Qaçaqaçın gur səsi.
Qulağı eşitdiyi
Bütün səslərdən pisi.

Sıldırım qayalardan
Quştək oppanırdılar.
Dağa-daşa sürtünüb,
Od tutub yanırdılar.

Kəsirdi heyvanları
Xançal kimi budaqlar.
Əsgitək cında-cında
Kəsilirdi yazıqlar.

Nə ağac görürdülər,
Nə daş, nə kol, nə divar.
Sinələri, başları
Olmuşdu qabar-qabar.

Dağların zirvəsindən
Neçə heyvan yıxıldı.

Düşüb bataqlıqlara
Neçəsi də yox oldu.

Heyvanları boğurdu
Öz böyüyən dilləri.
Bu qorxudan töyşüyən
Nəfəsləri, əlləri.

Aralarında artdı
Yıxılan, ölən, itən.
Bir qorxudan qaçanlar
Qorxmurdular ölümdən.

Çox qaçdılar, qaçdılar,
Onlar külək sayağı.
Qaranı görməyərək
Bastalayaraq ağı.

Dəli kimi qaçdılar,
Bulaşdılar al qana.
Çatdılar qaça-qaça
Meşənin axırına.

Axırında meşənin
Göy düzənlik var idi.
Aram-aram orada
Qoca bir fil gəzərdi.

Bütün heyvanlardan çox
Ağıllıydı qoca fil.
Hamısından zəhmətkeş,
Hamısından da adil.

Gördü qaçaqaçın
Göyə çıxan tozunu,
Amma bir an da belə
İtirmədi özünü.

Təmkinlə yaxınlaşıb
O qaçanlara sarı.
Yavaş-yavaş qaldırdı
Xortumunu yuxarı.

Heyvanlar görən kimi
Güclü, ağıllı fili.
Dövrələdilər onu
Bir az keçib irəli.

Fil baxdı heyvanların
Yorğun sifətlərinə.
Didilmiş tüklər altda
Qızaran ətlərinə.

Gördü onlar hamısı
Lap ölümcül olublar.
Üzlərində çox böyük
Bir qorxunun izi var.

Anlamadı heç bir şey
O bu gördüklərindən,
Aram-aram soruşdu
Nəfəs alıb dərindən:

– Nə olub, bu nə haldı,
Deyin, nə qalmaqaldı?
Özünüzə baxın siz,
Heyvana oxşamırsız.
Söyləyin bir nə olub,
Sizi kim, deyin görüm,
Belə qorxuya salıb?

Heyvanlar danışmayıb,
Mat-mat baxdılar filə.
Heyvanlardan biri də
Söz gətirmədi dilə.

Fil bir şey anlamayıb
Əsəbiləşdi yaman.
Heyvanlar arasında
Şiri gördü bu zaman.

– Bəlkə, sən danışasan,
Ay ağzı qan, gözü qan!
Danışsana, axı sən
Bunların böyüyüsən!

Şir ora-bura baxdı,
Sonra irəli çıxdı:

– Bilirsənmi, böyük fil,
Bu xəbəri sən də bil!
Bədbaxtçılıq üz verib,
Bizi bura gətirib.
Arxadan Bum-bum gəlir,
Dərd gəlir, ölüm gəlir.

Diqqətlə qulaq asıb
Şirin dediklərinə,
Fil qəribə səs ilə
Soruşdu şirdən belə:

– Dedin Bum-bum gəlir, şir,
Demədin Bum-bum kimdi!
Bum-bum adında heyvan
Görməmişəm mən, inan.
Gəl bu qorxunu unut,
Özünü şir kimi tut.
Özünü bir ələ al,
Bum-bumun kim olduğun
Heyvan kimi başa sal!

Qaşındı şirin başı
Filin bu sözlərindən.
Mat-mat baxıb ətrafa
Astaca dedi birdən:

– Mən də gecə sənintək
Gəzirdim meşədə tək.
Gördüm bir sürü heyvan
Üstümə gəlir yaman.

Saxlayıb gələnləri,
Öyrəndim bu xəbəri.
Amma özümü şahtək
Apardım indiyədək.
İrəlidə qaçdım mən
O Bum-bumun əlindən.
“Biz müvəqqəti gərək
İndi geri çəkilək”, –
Dedim mən heyvanlara,
Və gəlib çıxdıq buraya.
Amma doğru söz deyim
İndi mən sənə gərək.
Bum-bum kimdir bilmirəm,
Şah da çaşar, neyləyək?

Yaman təəccübləndi fil
Şirin axmaqlığına.
Canavarı çağırıb,
Üzünü tutdu ona:

– Yaxşı, sən də Bum-bumu
Görmüsənmi, canavar?
Sənin ki boş təpəndə
İki iti gözün var!

– Bu xəbəri mənə də
Meşədə dedi o, bu.
Mən də heç görməmişəm
O qorxulu Bum-bumu.

Yaman əsəbiləşdi fil
Canavarın sözündən.
Amma yenə çıxmadı
Ağıllı fil özündən.

– Yaxşı, deyin mənə bir,
Bəs kim görüb Bum-bumu?
Mənə cavab veriniz,
Niyə susursunuz siz?

Susurdular heyvanlar
Qulaqlarını salıb,
Bilmirdilər özləri
Nə baş verib, nə olub.

Filin bu sualına
Cavab vermədi heç kəs.
Heyvanlar bir-birinə
Durub baxırdı tərs-tərs.

Elə bu vaxt sürüdən
Qalxdı tülkünün əli.
Fildən icazə alıb,
Tülkü çıxdı irəli:

– Meşəmizdə ən aqil,
Böyük fil, qüvvətli fil,
Burda altı heyvan var,
Altı qardaş dovşanlar,
Bum-bumu görüb onlar.

Fil sürünün içindən
Dovşanları çağırdı.
Dovşanlar gələn kimi
Üstlərinə bağırdı:

– Harda gördüz Bum-bumu?
Hamıya deyin bunu!

Dovşanlardan birisi
Keçib bir az qabağa.
Yarpaqtək əsə-əsə
Başladı danışmağa:

– Bilirsizmi, fil əmi,
Sahildə qaçırdıq biz.
Gəldi Bum-bumun səsi,
Tükümüz oldu biz-biz.
Oradan qorxub qaçdıq,
Başqa heyvanlara da
Bu xəbəri biz açdıq.

– Bəs gördünüzmü onu?

– Deyə bilmərik bunu,
Çünki səsi gələntək
Götürüldük küləktək.

– Haradadı o göl bəs?

– Burdan sola, sonra düz.
Dağ başından o yana,
Qoca palıd yanında.

Fil bir az fikirləşdi,
Sonra hamıya dedi:

– Yaxşı, gedəyin ora,
Həmin gölün yanına.
Bum-buma biz də baxaq,
Görməsək, çeşmək taxaq.
Çeşməklə də görməsək,
Bu qorxaq dovşanları
Gölün içinə soxaq!

Deyib bu sözləri fil,
Yola düzəldi birbaş.
Heyvanlar da getdilər
Arxadan yavaş-yavaş.

Onlar xeyli getdilər,
Neçə ağac ötdülər.
Çoxlu gedəndən sonra
Gəlib çatdılar ora,
Dağ başından o yana,
Gözəl gölün yanına.

Yorulmuş canlarını
Heyvanlar çəkə-çəkə,
Gözəl göl sahilində
Durdular cərgə-cərgə.

Kəsildi heyvanların
Söhbətləri, sözləri.
Bum-bumu axtarırdı
Hamısının gözləri.

Axtardılar Bum-bumu
Baxaraq ora-bura.
Amma qorxulu bir şey
Görünmədi onlara.

Çox hündür olduğundan
Fil görürdü hər yeri,
Gölün o sahilində
İzləyirdi nəzəri.

Biabır olan şirin
Qanı qaraldı yaman.
Qızarmışdı sifəti
Fildən utandığından.

Amma şir də baxırdı
Gölün o sahilinə.
İstəyirdi ki, Bum-bum
Keçsin onun əlinə.

Heyvanların gözündə
Qalxsın yenə hörməti.
Yenə dillərdə gəzsin
Onun heyvan cürəti.

Hirs yandırırdı şirin
İçini ocaq-ocaq.
Heç bir yanda Bum-bumu
O da görmədi ancaq.

Heyvanları yorğunluq
Lap taqətdən salmışdı.
Bu qaçaqaç onların
Son gücünü almışdı.

Yuxuya gedəcəkdi
Bir azdan böyük meşə.
Yatacaqdı heyvanlar
Qüvvə yığmaqçün dişə.

Gedirdi gün işığı,
Kölgələr qaralırdı.
Gecənin gəlməsinə
Beş-on addım qalırdı.

Yaxşı yuxutək yumşaq
Xəfif yel əsdi birdən.
Yavaşca endi suya
Gölün o sahilindən.

Nə yelkən tutdu onu,
Nə daş divarlar əzdi.
Yol gölün üzərində
Açıq sinəylə gəzdi.

Ağac yarpaqlarının
O yel sildi tozunu.
Amma özü bilmədi,
Tora saldı özünü.

Yel alma ağacının
İlişdi budağına.
Xilas olmaq mahnısı
Oxudu yana-yana.

Ora-bura dartındı,
Fit çaldı acığından.
İki alma da qırdı
Yel alma ağacından.

Düşdülər başı üstə
O almalar torpağa.
"Bum-bum" səsi yayıldı
Onlardan sola, sağa!

Heyvanlara o anda
Məsələ aydın oldu.
Gülüş, sevinc səsiylə
Gölün sahili doldu.

Bum-bumun kim olduğun
Eşitdilər, bildilər.
Öz qorxaqlıqlarına
Qəhqəhəylə güldülər.

Amma "Bum-bum" səsini
Eşidəntək dovşanlar,
Yenə yamanca qorxub,
Götürüldülər onlar.

O anda dovşanların
İzi-tozu da itdi.
Dovşanlar qaçan yerdə
"Bum-bum" nağılı bitdi!..

*1967*